QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 223 (5695) **24 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Azərbaycanda qeyri-neft sektorunun inkişafı: iqtisadi islahatlar və onun nəticələri

*İlham Əliyev: "Sumqayıt Kimya-Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək"*

Səh 2



## İbrahim Kalın: Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini azad etməlidir



3

## Əfv sərəncamlarının imzalanması yüksək humanizm nümunəsi və dövlətin öz vətəndaşlarına verdiyi dəyərin ifadəsidir



3

## Prezidentin Türkmənistana rəsmi səfəri çərçivəsində nəqliyyat-tranzit sahəsinə aid 9 sənəd imzalanıb



5

## Paşinyan Azərbaycan-Belarus əməkdaşlığı barədə: "Ermənistana zərbə vuruldu"



7

## Bu il ölkəmizə 2,4 milyondan çox turist gəlib



8

## Avropa İttifaqı ikili standartlar siyasəti yürütməkdə davam edir



12

7

## Elçin Mirzəbəyli: "Ermənistanda baş verənlər ənənəvi Erməni isterikasıdır"



5

## "Ermənistanın siyasi qütblərini dəyişməsi bu ölkəyə baha başa gələcək"



16

## "Barselona" rəhbərliyi Neymarı geri qaytarmaq üçün danışıqlara başlayıb



# Azərbaycanda qeyri-neft sektorunun inkişafı: iqtisadi islahatlar və onun nəticələri

## *İlham Əliyev: "Sumqayıt Kimya-Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək"*

***Bu gün Azərbaycanın iqtisadi inkişafı davamlı bir prosesə çevrilib. Məhz bunun nəticəsidir ki, son 15 ildə ölkəmiz sosial-iqtisadi inkişaf göstəricilərini ardıcıl şəkildə yaxşılaşdırmağa nail olub. Bu baxımdan, Prezident İlham Əliyevin 2018-ci ilin uğurlu və sürətli inkişaf ili olacağı ilə bağlı verdiyi proqnozlar özünü yüksək səviyyədə doğruldur. Ölkəmizdə milli iqtisadiyyatın ayrı-ayrı istiqamətləri, o cümlədən də, qeyri-neft sektoru üzrə inkişaf dinamikası daha yüksək səviyyədədir.***



Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət kursu Azərbaycanın müasir inkişafında xüsusi yer tutur. Hazırkı şəraitdə hər bir ölkənin gücü, ümumi iqtisadi potensialı, qlobal miqyasdakı yeri bir sıra digər parametrlərlə yanaşı, eyni zamanda, sənaye inkişafı ilə ölçülür. Güclü sənaye potensialına malik olan ölkələr həm daxili tələbatlarını yerli istehsal hesabına ödəyərək, maliyyə vəsaitlərini qoruyurlar, həm də xarici bazarlarda böyük həcmlərdə



məhsullarla təmsil olunaraq, özlərinə valyuta axınını təmin edirlər. Əsaslı dövlət vəsaiti qoyuluşu hesabına Azərbaycan infrastruktur təminatı baxımından, dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib ki, bunun da sayəsində, respublikamızda sənaye quruculuğu üçün geniş perspektivlər açılıb.

Bir faktı da nəzərə almaq gərəkdir ki, cəmisi 2004-2018-ci illərdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Bu rəqəm olduqca böyük bir əhəmiyyət kəsb edir. Əgər son 15 ildə əldə olunan iqtisadi artım qeyri-neft sektrunda 2,8 faiz təşkil edirsə, deməli, artıq ölkəmizdə qeyri-neft sektoru özünün yüksək inkişaf mərhələsinə qədəm qoyub. Ən əsası isə, bu işlərin böyük əksəriyyətinin regionlarda aparılması kompleks inkişafımızın təməl prinsipinə xidmət göstərir.

Bu baxımdan, ölkə Prezidenti İlham Əliyevin noyabrın 16-da Sumqayıta səfəri çərçivəsində bir çox obyektlərin, o cümlədən, Dəmir Yolu Vağzalı Kompleksinin, Sumqayıt Kimya-Sənaye Parkında İnşaat Kimyəviləri Zavodunun açılışında iştirak edib.

### Sumqayıt Kimya-Sənaye Parkına investisiyalar 3 mlrd. dollara çatdırılacaq

Prezident İlham Əliyev Sumqayıt Kimya-Sənaye Parkındakı tütün məmulatları istehsalı fabrikinin açılışında çıxışı zamanı bildirib ki, bu gün Sumqayıt Kimya-Sənaye Parkında üç yeni müəssisə fəaliyyətə başlayır: "Mən bu münasibətlə müəssisələrin kollektivlərini salamlayır və təbik edirəm. Əminəm ki, bu müəssisələr çox səmərəli işləyəcək və ölkə iqtisadiyyatına böyük töhfə verəcək".



Dövlət başçısı, onu vurğulayıb ki, bu müəssisələr ən yüksək standartlara cavab verir: "Bu müəssisələr ən yüksək standartlara cavab verir və bizim sənaye potensialımızı böyük dərəcədə möhkəmləndirən müəssisələrdir. Ferroərintilər, inşaat-kimyəvi qatqılar zavodları, siqaret fabriki bu gün fəaliyyətə başlayır. Birinci mərhələdə bu müəssisələrdə 400-dən çox iş yeri yaradılıb, gələcəkdə isə iş yerlərinin sayı 700-ə çatacaq. Mənə verilən məlumata görə, bugünkü mərhələdə siqaret fabrikinə 35 mln. dollar, ferroərintilər zavoduna 25 mln. dollar və inşaat materialları zavoduna isə 3,5 mln. dollar sərmayə qoyulub. Ancaq indi təqdimatda deyildi ki, siqaret fabrikinə bundan sonra da əlavə vəsait qoyulacaq və investisiya həcmi təxminən 50 mln. dollara çatacaq, ferroərintilər zavoduna isə 100 mln. dollar investisiya qoyulacaqdır. Yəni bu, onu göstərir ki, vaxtilə Sumqayıt Kimya-Sənaye Parkının yaradılması ilə bağlı qərar düzgün və vaxtında qəbul edilmiş qərar idi".

### "Sumqayıt Kimya-Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir"

"Sumqayıt Kimya-Sənaye Parkı, əslində, şəhər içində bir sənaye şəhəridir" fikrini deyən dövlət başçısı qeyd edib ki, gələcəkdə parkın hüdudları genişləndiriləcək: "Gələcəkdə parkın hüdudları genişləndiriləcək və təbii ki, yeni rezidentlər qəbul ediləcəkdir. On səkkiz müəssisə tam gücü ilə işləyəndən sonra 6 min iş yeri təmin ediləcəkdir. Əlbəttə ki, Sumqayıt şəhərində işsizliyin bundan sonra da aşağı səviyyədə saxlanması üçün bu parkın çox böyük əhəmiyyəti var. Ümumiyyətlə, bu günə qədər Sumqayıt Kimya-Sənaye Parkının yaradılmasına, müəssisələrin fəaliyyətə başlamasına 2,2 mlrd. dollar sərmayə qoyulub və növbəti dövrdə bu rəqəm təxminən 3 mlrd. dollara çatacaqdır. Əgər biz bu parkı yaratmasaydıq və sahibkarlara güzəştli şərtlər təqdim etməsəydik, dövlət tərəfindən böyük dəstək göstərməsəydik, bu vəsait də qoyulmayacaqdı və iş yerləri də yaradılmayacaqdı. Ona görə biz Sumqayıt Kimya-Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək".

### "Son 15 il ərzində ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub"

Ölkə Prezidenti qeyri-neft sektorunun inkişafı və ixracının artırılmasının əsas məqsəd olduğunu da vurğulayıb: "Qeyri-neft sektorunun inkişafı, qeyri-neft ixracının artırılması əsas məqsəddir. Bu ilin 10 ayında bizim qeyri-neft ixracımız 12 faiz, ümumi ixracımız isə 37 faiz artıb. İxrac artdıqca, bizim iqtisadi vəziyyətimiz daha da yaxşılaşır. Bu, makroiqtisadi sabitliyə, manatın məzənnəsinə müsbət təsir göstərir. Təsadüfi deyil ki, Azərbaycanda makroiqtisadi sabitlik çox yaxşı səviyyədədir, inflyasiya on ayda cəmi 2,4 faizdir. Bu müəssisələrin yaradılması yerli və xarici investorlar üçün növbəti bir siqnaldır ki, gəlsinlər Azərbaycana sərmayə qoysunlar. Bu yaxınlarda Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan deyə bilərəm ki, tarixi nailiyyət əldə edib, dünya miqyasında biznes mühitinə görə, 25-ci yerdə qərarlaşıb. Keçən il biz 57-ci yerdə idik. Yəni belə bir böyük irəliləyiş əlbəttə ki, aparılan islahatların məntiqi nəticəsidir. "Doing Business" hər bir yerli və xarici investor üçün əsas amillərdən biridir ki, o ölkəyə pul qoyulsun, yoxsa yox. "Doing Business" hesabatı, belə gözəl müəssisələrin yaradılması, Azərbaycanda ümumi vəziyyət, sabitlik, inkişaf, əlbəttə ki, xarici və yerli investorları daha da stimullaşdırır. Təsadüfi deyil ki, son 15 il ərzində, ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulub".

Beləliklə, bütün bu uğurlu faktlar, onu deməyə əsas verir ki, Azərbaycanda sənayenin inkişafı bundan sonra da genişlənəcək. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: "Biz Sumqayıt Kimya-Sənaye Parkının timsalında uğurlu sənaye siyasətimizi görürük və bu siyasət bundan sonra da davam etdiriləcək".

**RƏFİQƏ KAMALQIZI**

# Əfv sərəncamlarının imzalanması yüksək humanizm nümunəsi və dövlətin öz vətəndaşlarına verdiyi dəyərin ifadəsidir

Hüquqi və demokratik dövlət olan Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub. Bununla yanaşı, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Yəni dövlət öz vətəndaşlarına xüsusi diqqət və qayğı göstərir, qəbul olunan bütün qərarlarda vətəndaşların mənafeyi əsas götürülür. Eyni zamanda, Azərbaycan dövləti öz vətəndaşlarına qarşı humanist mövqe nümayiş etdirir, onların cəmiyyət daxilində təhlükəsiz,



*Siyavuş Novruzov,*
*YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri*

əmin-amanlıq şəraitində yaşaması, öz imkan və qabiliyyətlərindən səmərəli istifadə etmələrini diqqət mərkəzində saxlayır. Bu baxımdan, azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən əfv haqqında sərəncamların imzalanması, eləcə də Amnistiya Aktlarının qəbul olunması xüsusi əhəmiyyətə malikdir. Bu, dövlətin humanizm siyasətini və öz vətəndaşlarına münasibətini əks etdirən mühüm göstəricilərdən biridir. Azərbaycanda məhkumların əfv olunması həm ölkə Prezidentinin imzaladığı Fərman və sərəncamlar, həm də Milli Məclisin qəbul etdiyi Amnistiya Aktları əsasında həyata keçirilir.

Humanizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin və müsbət ənənənin təməli isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev hər zaman humanizm - insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu Öz fəaliyyətində daim nümayiş etdirib. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra ölüm hökmünə moratorium qoyub. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmadı və sonradan ümumiyyətlə bu cəza növü ləğv edildi. Bununla yanaşı, Ümummilli liderin ölkəmizə rəhbərliyi dövründə əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib. Ümumiyyətlə, Azərbaycanın müstəqilliyini bərpa etdiyi 18 oktyabr 1991-ci ildən Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrə qədər ölkəmizdə amnistiya və ya əfv haqqında hər hansı bir qərar və sərəncam olmayıb. Məhz Ümummilli liderin hakimiyyətə qayıdışından sonra 1996-cı ildən başlayaraq əfv sərəncamları imzalanıb, amnistiya haqqında qərarlar qəbul olunub.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yəni Azərbaycanda məhkumların əfv olunması ənənəsi mütəmadi xarakter daşıyır. Öz siyasətində daim yüksək humanizm prinsiplərini rəhbər tutan Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum öz azadlığına qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb.

Ümumiyyətlə, bu günə qədər ölkəmizdə 11 dəfə amnistiya aktı qəbul edilib, dövlət başçısı tərəfindən 60-dan çox əfv fərmanı və sərəncamı imzalanıb. Nəticədə 10 minlərlə insan azadlığına qovuşub. Ən son Amnistiya Aktı isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Bu Amnistiya Aktı 10 mindən artıq insana şamil olunub. Bu, Heydər Əliyev siyasətinin humanist mahiyyətini əks etdirən bariz nümunələrdən biridir. Yəni ölüm hökmünün aradan qaldırılması, əfv sərəncamlarının, amnistiya aktlarının qəbul olunması ilə məhkumların yenidən azadlığa qovuşub cəmiyyət üçün yararlı şəxsiyyətə çevrilməsi imkanının verilməsi məhz Heydər Əliyev siyasətinin aparıcı istiqamətlərindən biridir. Ümumiyyətlə, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da fəaliyyətində humanizm prinsipləri xüsusi yer tutur. Fondun yarandığı vaxtdan etibarən həyata keçirdiyi çoxşaxəli fəaliyyətlərindən biri də ardıcıl olaraq humanist addımların atılmasıdır.

Şübhəsiz ki, ölkəmizdə mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, Amnistiya Aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Əfv olunan vətəndaşlar dövlətin onlara olan inam və etibarını daim hiss edirlər, bu isə onları layiqli vətəndaş olmağa həvəsləndirir. Eyni zamanda, onlar minlərlə insanı əhatə edən əfv sərəncamlarına və amnistiya aktlarına, humanist addımlara görə dövlətimizin başçısı cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkürlərini bildirirlər. Yəni Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan bu addımları olduqca yüksək qiymətləndirirlər.

# İbrahim Kalın: Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini azad etməlidir



Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini azad etməlidir. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın Ankarada Türkiyə və Rusiya arasında gələcək münasibətlərə həsr olunmuş konfransda çıxışı zamanı deyib.

Mətbuat katibi, həmçinin qeyd edib ki, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək Ermənistanın özünün xeyrinə olacaq. İ.Kalının sözlərinə görə, Rusiya da Dağlıq Qarabağ münaqişəsinin həllində böyük məsuliyyət daşıyır. Mətbuat katibi vurğulayıb ki, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olması baxımından da çox vacibdir.

# Azərbaycan ilə Türkmənistan arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Birgə Komissiya yaradılıb

Azərbaycan ilə Türkmənistan nəqliyyat, tranzit və logistika məsələləri üzrə Birgə Komissiya yaradılıb. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev mətbuat konfransında deyib. O bildirib ki, Türkmənistanda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş"ə əsasən dəniz, avtomobil, dəmir və hava yolu, multimodal daşımaların gələcək inkişafına, tərəflərin tranzit və idxal-ixrac yüklərin daşınması məsələsinin operativ həllinə, aidiyyəti qurumların və operatorların fəaliyyətinin əlaqələndirilməsinə yardım edəcək.

# Hikmət Hacıyev: "İmzalanmış sənədlər Azərbaycan Prezidentinin Türkmənistana səfərinin praktiki əhəmiyyətini aydın göstərir"

Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri zamanı keçirilən görüşlərin, imzalanan sənədlərin önəmini AZƏRTAC-a şərh edib.



Hikmət Hacıyev deyib ki, Azərbaycanın beynəlxalq əlaqələrinin genişləndirilməsi, digər dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığının inkişaf etdirilməsində Prezident İlham Əliyevin xarici ölkələrə rəsmi və işgüzar səfərləri, əcnəbi ölkələrin dövlət və hökumət başçılarını və digər yüksək səviyyəli rəsmi nümayəndə heyətlərini respublikamızda qəbul etməsi xüsusi əhəmiyyətə malikdir. Dövlətimizin başçısının xarici ölkələrə səfərlərindən əvvəl qarşıya qoyulmuş tapşırıqlar əsasında müfəssəl və məzmunlu gündəlik formalaşdırılır, səfərlər mahiyyət etibarilə nəticəyönümlü xarakter daşıyır, açıq məsələlərin həllinə və ikitərəfli siyasi, iqtisadi, ticarət, humanitar və digər sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsinə xidmət edir. Təbii ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq və regional təhlükəsizlik məsələləri Prezident İlham Əliyevin gündəliyində prioritet xarakter daşıyır.

Həftə ərzində dövlətimizin başçısının Belarus və Türkmənistana rəsmi səfərləri həyata keçirildi. Hər iki ölkə ilə Azərbaycanın tarixi və ənənəvi dostluq əlaqələri var. Belarusa səfər əsnasında Prezident İlham Əliyevin Prezident Aleksandr Lukaşenko ilə iki saatdan artıq apardığı danışıqlar, imzalanan 10-a yaxın sənəd, xüsusilə iki ölkənin liderlərinin imzaladığı Birgə Bəyanat strateji tərəfdaşlığımızın müxtəlif sahələrdə daha da dərinləşməsi üçün geniş perspektivlər açıb. Dövlət başçılarının imzaladığı Birgə Bəyanatda Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri və beynəlxalq hüququn ümumqəbuledilmiş prinsipləri olan ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı əsasında həllinin vacibliyi qeyd olunub.

Türkmənistan tərəfi Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsi və dövlətimizin başçısı tərəfindən rəsmi səfərin həyata keçirilməsinə münasibətdə öz marağını ifadə etmişdi. Belə ki, dövlətimizin başçısının səfərindən əvvəl Türkmənistan Baş nazirinin müavini və xarici işlər naziri ölkəmizə səfər etmişdi. 2017-ci ildə "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bu Bəyannamə iki dövlət arasında əlaqələrin strateji tərəfdaşlıq müstəvisində inkişafını xarakterizə edir. Noyabrın 21-22-də həyata keçirilən səfər çərçivəsində 20 sazişin və dövlət başçılarının Birgə Bəyanatının imzalanması səfərin praktiki əhəmiyyətini və nəticələrini açıq şəkildə nümayiş etdirir. İmzalanan sənədlər siyasi, nəqliyyat-logistika, tranzit daşımalar və onların idarə edilməsi, uzunmüddətli iqtisadi-sənaye əməkdaşlığı, elm-təhsil və humanitar sahələri əhatə edir.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, səfər çərçivəsində imzalanan Birgə Bəyanatda dövlət başçıları dost ölkələr olan Azərbaycan və Türkmənistanın bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəklədiklərini bir daha təsdiqlədilər. Həmçinin Birgə Bəyanatda prezidentlər suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət və riayət əsasında beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun olaraq münaqişələrin sülh yolu ilə həllinin zəruriliyini qeyd etdilər.

Hikmət Hacıyev vurğulayıb ki, Azərbaycanda və Türkmənistanda paralel surətdə multimodal nəqliyyat sistemləri, dəniz limanları, yol-nəqliyyat infrastrukturu yaradılıb. Dövlətimizin başçısının Türkmənistana səfəri və səfər əsnasında imzalanmış sənədlər iki ölkənin nəqliyyat sistemlərinin inteqrasiya və harmonizasiya edilməsi, nəqliyyat və digər sahələrdə əməkdaşlığın müqavilə-hüquq bazasının və hökumət səviyyəsində operativ əlaqələndirmə mexanizmlərinin yaradılmasına əsaslı təkan verib. Azərbaycan və Türkmənistan yalnız regional səviyyədə deyil, Avrasiya qitəsi boyunca Şərq-Qərb dəhlizinin inkişafına öz mühüm töhfələrini verirlər.

# Türk ölkələrinin münasibətləri qlobal layihələrə yaşıl işıqdır



***Azərbaycan Prezidenti İlham Əliyevin 21-22 noyabr tarixlərində Türkmənistana rəsmi səfəri, səfər çərçivəsində dövlət başçısının Türkmənistan prezidenti ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniştərkibli görüşü regional, eləcə də, qlobal əhəmiyyətinə görə seçilir və bu səbəbdən, diqqət mərkəzindədir. Səfər çərçivəsində Azərbaycan və Türkmənistan arasında siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat-logistika və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi xüsusi əhəmiyyət kəsb edir və daha böyük perspektivlər vəd edir.***



Nəzərə almaq lazımdır ki, 2017-ci ildə imzalanan "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji Tərəfdaşlıq haqqında Bəyannamə", şübhəsiz ki, iki dövlət arasında əlaqələrin strateji tərəfdaşlıq müstəvisində inkişafını xarakterizə edir və dövlət başçılarının son görüşü, əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri ətrafında fikir mübadiləsi tərəfdaşlıq əlaqələrinin ruhuna uyğundur. Bu tərəfdaşlıq əlaqələrinin gələcəkdə daha böyük perspektivlərə yol açdığı sözsüz ki, şübhə doğura bilməz və bundan sonra bir çox sahələrdə, ələlxüsus siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat-logistika sahələrində daha sürətli inkişaf gözləniləndir.

## Dövlət başçılarının imzaladığı birgə bəyanat ölkələrimizin suverenliyi üçün çox önəmlidir

Hər iki qardaş ölkənin, türkdilli Azərbaycan və Türkmənistanın dövlət başçıları tərəfindən birgə imzalanan bəyanat ölkələrimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Əbəs yerə deyil ki, 22 noyabr 2018-ci ildə dövlət başçılarının imzaladığı birgə bəyanatda mühüm məqamlara toxunulub və bu məqamlar ölkələrimizin suverenliyi üçün çox önəmlidir. Bu bəyanat dövlət başçılarının dost ölkə olan Azərbaycan Respublikası və Türkmənistanın bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəklədiklərini bir daha təsdiqləyir.

Türkmənistan hər zaman Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşıb və bu qardaş ölkə bizim maraqlarımızı dəstəkləməklə beynəlxalq hüququn bütün norma və prinsplərinə həmişə sadiqliyi ilə seçilib. Prezidentlərin suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət və riayət əsasında beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun olaraq, münaqişələrin sülh yolu ilə həllinin zəruriliyini qeyd etmələri də bunu təsdiq edir.

## Ölkə başçısının xarici səfərləri ölkəmizin Ermənistan-Azərbaycan münaqişəsi kontekstində haqlı mövqeyinə beynəlxalq birliyin dəstəyini möhkəmləndirir

Şübhəsiz ki, ölkə Prezidenti İlham Əliyevin xarici səfərləri, əcnəbi nümayəndə heyətlərini ölkəmizdə qəbul etməsi və bu əsnada aparılan ardıcıl və məntiqli siyasət sayəsində ölkəmizin Ermənistan-Azərbaycan münaqişəsi kontekstində haqlı və ədalətli mövqeyinə beynəlxalq birliyin dəstəyi davamlı surətdə daha da möhkəmləndirilir və bu mövqe dövlət başçıları səviyyəsində qəbul olunan sənədlərdə öz əksini tapmaqdadır.

Azərbaycan və Belarus Prezidentlərinin birgə bəyanatının ardınca Azərbaycan və Türkmənistan dövlət başçılarının birgə bəyanatı deyilənləri təsdiq edir və bütün bunlar ölkə başçısının bu istiqamətdə uğurlu fəaliyyətinin bariz nümunəsidir. Qeyd olunan bəyanatlar həmin ölkələrin Azərbaycanın ərazi bütövlüyü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəklədiyini təsdiq edən sənəddir və xüsusilə, qeyd etmək lazımdır ki, bu dövlət başçısı Prezident İlham Əliyevin siyasi iradəsinin, məqsədyönlü və uğurlu siyasətinin məntiqi nəticəsidir.

## Prezidentin Türkmənistana səfəri nəqliyyat sistemlərinin inteqrasiyası və harmonizasiya edilməsi, əməkdaşlığın müqavilə-hüquq bazasının və operativ-əlaqələndirmə mexanizmlərinin yaradılmasına əsaslı təkan verəcək

Səfər çərçivəsində nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılmasını dövlət başçılarının dəstəkləməsi isə Azərbaycan və Türkmənistanın tranzit yüklərinin, həmçinin, ixrac-idxal yüklərinin daşınması məsələlərinin operativ həll edilməsi üçün, xüsusilə, əhəmiyyətlidir. Nəqliyyat sahəsində iki ölkənin maraqlarına cavab verən mühüm layihələri bundan sonra da dəstəkləməkdə davam edəcəklərini bəyan edən dövlət başçıları nəqliyyat sahəsində gələcəkdə daha böyük uğurların əldə ediləcəyinə ümidləri artırmış oldular. Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə Nəqliyyat Dəhlizi layihəsini, həmçinin, Transxəzər beynəlxalq nəqliyyat marşrutu çərçivəsindəki layihələri bundan sonra da dəstəkləməkdə davam edəcəklərini dövlət başçılarının bəyan etməsi çox müsbət addımdır və hər iki ölkənin iqtisadi cəhətdən inkişafına hesablanıb. Bir sözlə, Azərbaycan və Türkmənistan arasında quru, dəniz və dəmiryol nəqliyyat daşımaları sahəsində ələqələrin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir, iki ölkənin maraqlarına xidmət edir, regionda və bütöv Avrasiya qitəsi boyunca Şərq-Qərb Nəqliyyat Dəhlizinin hərtərəfli inkişafına xidmət edir.

Dövlət başçılarının iştirakı ilə 20 müqavilə imzalanıb ki, bu da Azərbaycan və Türkmənistan arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafına hesablanıb və əməkdaşlığın gələcək inkişafını şərtləndirir. Bura "Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında 2019-2021-ci illər üzrə iqtisadi-ticari sahədə əməkdaşlıq proqramı", "Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında 2019-2022-ci illər üzrə nəqliyyat sahəsində əməkdaşlıq proqramı", "Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında nəqliyyat, tranzit və logistika sahəsində Azərbaycan-Türkmənistan birgə komissiyasının yaradılması haqqında saziş", "Azərbaycan Dəmir Yolları və Türkmənistanın Transport və Tranzit üzrə Dəmir Yolları Nazirliyi arasında saziş, Bakı Beynəlxalq dəniz portu ilə Türkmənbaşı Dəniz Portu arasında əməkdaşlıq haqqında saziş, ikiqat vergitutmanın aradan qaldırılması, 2019-2021-ci illər ərzində elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq, uzunmüddətli iqtisadi-ticari əməkdaşlıq, ADA Universiteti ilə Türkmənistan Xarici İşlər Nazirliyi nəzdində Beynəlxalq Əlaqələr İnstitutu və Türkmənistanın Humanitar Elmlər və İnkişaf üzrə Beynəlxalq Universiteti arasında əməkdaşlıq haqqında sazişlər və digərləri daxildir.

Ölkə başçısı İlham Əliyevin Türkmənistana səfəri iki ölkənin nəqliyyat sistemlərinin inteqrasiyası və harmonizasiya edilməsi, nəqliyyat və digər sahələrdə əməkdaşlığın müqavilə-hüquq bazasının və hökumət səviyyəsində operativ-əlaqələndirmə mexanizmlərinin yaradılmasına əsaslı təkan verəcəyinə zərrə qədər şübhə ola bilməz. Bir sözlə, dövlətimizin başçısının Türkmənistana səfəri iki ölkə arasında əlaqələrin strateji xarakter daşıdığını təsdiqləyir və bu əlaqələrin bundan sonra daha geniş vüsət alacağına zəmin yaradır. Bu isə, onu deməyə əsas verir ki, iki türk ölkəsinin münasibətləri regionda qlobal layihələrə yaşıl işıqdır.

***İnam HACIYEV***

# Bəhruz Quliyev: "Ermənistanın siyasi qütblərini dəyişməsi bu ölkəyə baha başa gələcək"

*"Ermənistan növbədənkənar seçki ərəfəsindədir, buna baxmayaraq, ölkədə davam edən siyasi böhran hələ də davam edir. Bunun isə bir neçə köklü səbəbləri var". SİA xəbər verir ki, bu fikirləri Trend-ə "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev işğalçı ölkədə "məxməri inqilab" adlanan qiyamdan sonra hakimiyyətə yiyələnmiş Nikol Paşinyanın anti-Rusiya siyasətini şərh edərkən deyib.*



Onun sözlərinə görə, istər N.Paşinyanın lideri olduğu "Vətəndaş sazişi" partiyası, istərsə də yeni yaradılan və ultra radikallığı ilə seçilən "Sasna srer" ("Sasunun ərənləri" - red.) partiyası bütün cəhdlərində Rusiya əleyhinə bəyanatlar yayır, bununla da vassallıq siyasətlərinin Şimaldan Qərbə doğru dəyişdiklərini sübut edirlər:

"Xatırlatmaq istərdim ki, "Sasna srer" təmsilçiləri məhz Serj Sarkisyanın hakimiyyəti dövründə İrəvanda silahlı qiyam törədərək, Ermənistanın Rusiyadan asılılığına qarşı polislərin qətlə yetirilməsi ilə nəticələnmiş terror aksiyasını həyata keçirmişdilər. Maraqlısı da budur ki, onların azadlığa buraxılmasında əsas canfəşanlığı da məhz Nikol Paşinyan göstərdi. Gördüyümüz kimi, artıq onlar parlament seçkilərinə partiya qismində qatılmağa hazırlaşırlar. Söz yox ki, Qərbin dəstəyi ilə. Əbəs deyil ki, terror olayına rəhbərlik etmiş, bu gün isə deputat olmağa hazırlaşan "Sasna srer"in lideri, o cümlədən, birinci Qarabağ müharibəsində azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilmiş Jirayr Sefilyan seçkilərlə bağlı keçirdiyi mətbuat konfransında parlamentə keçəcəkləri halda, Rusiya ilə siyasətə yenidən baxılacağı ilə bağlı tələblərlə çıxış edəcəklərini bəyanat olaraq səsləndirib. Misal üçün, İrəvanın KTMT-dən və Avrasiya İqtisadi İttifaqı tərkibindən çıxması, Rusiya hərbi bazalarının ölkədən çıxarılması ətrafında səslənən fikirlərdən də bu cür nəticəyə gəlmək olar ki, artıq bu siyasət onlarda prioritetlik təşkil edir".

Ekspertin sözlərinə görə, lakin bu da son deyil və Ermənistanda aşırı millətçilik tərəfdarları olanların ölkənin bütövlükdə Rusiyanın təşəbbüsü ilə yaradılan bütün qurumlardan, o cümlədən MDB-dən çıxması ətrafında fikirlər bildirməsinə şübhəsiz ki, Kreml göz yummayacaq. Qərbə yönəlik siyasət ilk növbədə Ermənistanın iqtisadi-siyasi problemlərini artıracaq: "Biz yaxşı bilirik ki, Ermənistanın ayaqda qalmasına əsas dəstək verən faktor yuxarıda adlarını çəkdiyim təşkilatlardır və bu təşkilatlara nəzarət edən Rusiya dövlətidir. O cümlədən, Qərbin şərqə doğru genişlənməsi planında Ermənistanı öz forpostu olaraq seçməsi heç də bu ölkənin resursları ilə əlaqələndirilə bilməz. Çünki Ermənistanda mövcud olan iqtisadi tənəzzül bu ölkənin iqtisadiyyatının yenidən ayağa qalxması üçün heç bir üstünlük verə bilməz. Daha doğrusu, Ermənistanın çökmüş iqtisadiyyatının bərpası üçün bundan sonra yüz illər və milyardlarla dollar sərmayə lazımdır. Əlbəttə, Qərb bunu etməyəcək. Qərbə qeyd etdiyim kimi, sadəcə, regiona nəzarət etmək lazımdır və Ermənistan da bunun üçün bir oyuncaq vasitədir. Biz bu gün eyni vəziyyəti Ukraynada da görürük. Lakin Ermənistan Ukraynadan fərqli olaraq daha ağır durumdadır. Şübhəsiz ki, bu ölkənin rəhbərliyinin Azərbaycana qarşı işğalçılıq siyasəti yürütməsi onun vəziyyətini daha da çıxılmaz edir".

B.Quliyev son günlər Rusiyanın tanınmış jurnalisti, "Qovorit Moskva" radiostansiyasının rəhbəri Sergey Dorenkonun Ermənistanla bağlı ittihamlarını da xatırladaraq deyib ki, məhz işğalçı ölkənin Rusiyadakı səfirliyi ilə baş verən qalmaqallarda S.Dorenko Ermənistanı bütün çılpaqlığı ilə vəsf edib: "Onun Paşinyanı hədəfə alaraq, ermənilərin siyasətinin kökünə zərbə vurması da Ermənistanın anti-Rusiya siyasəti yürütməyə başlaması ilə əlaqələndirilməlidir. Rusiyalı jurnalist Paşinyan hakimiyyətinin səriştəsizliyindən, onun bacarıqsızlığından danışıb. Bu dedikləri də həqiqətdir. Həqiqətən də Paşinyan siyasət adamı yox, küçə adamı kimi daha çox tanınır və söz yox ki, siyasətin də nə olduğunu anlamır. Belə olan halda, rus jurnalistin haqlı ittihamları ermənilərdə qıcıq yaradıb. Ancaq rus siyasəti bu qıcığı da yox etməyə və Ermənistan hakimiyyətini yerinə otuzdurmağa qadirdir".

Baş redaktor Ermənistan hakimiyyətinin bir əlində iki qarpız tutması cəhdinə də münasibət bildirib və bu ölkənin həm ABŞ-la, həm də İranla eyni siyasət yürütməsinin mümkünsüz olduğunu bildirib: "Necə ola bilər ki, bir-biri ilə düşmən münasibətdə olan iki ölkə ilə eyni müstəvidə partnyorluq edəsən? Düşünürəm ki, bu siyasi baxış da Ermənistana yeni problemlər yaradacaq və hətta "nəfəs borusu" kimi təqdim edilən İran belə, bu ölkədən imtina edəcək. Bu isə səfil və siyasi böhranlar işində çabalayan Ermənistana daha ağır, sarsıdıcı zərbələr vuracaq. Belə vəziyyətdə Türkiyə və Azərbaycan faktorunu da nəzərə alsaq, bu zaman Paşinyan hakimiyyətinin və ona dəstək verən "Sasna srer" kimi siyasi təşkilatların qısa zamanda iflasa uğrayacaqlarını, ölkədə xalq qiyamının baş qaldıracağını əminliklə deyə bilərik".

# Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın gələn il Bakıda keçirilməsi ilə bağlı ilk hazırlıq iclası olub



Noyabrın 23-də Nazirlər Kabinetində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar ilk hazırlıq iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Təşkilat Komitəsinin sədri Əli Həsənovun yanında keçirilən iclasda Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakıda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn məsələlər müzakirə edilib.

Təşkilat Komitəsinin sədri Əli Həsənov narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən Azərbaycan Respublikasının beynəlxalq birliyin bütün səylərini dəstəklədiyini, Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulduğunu, ölkəmizdə bu sahədə milli hüquqi bazanın yaradıldığını vurğulayıb. Bu bəladan bütün dünyanın əziyyət çəkdiyini qeyd edən Baş nazirin müavini deyib ki, ABŞ-ın Narkotiklərlə Mübarizə Administrasiyasının dəstəyi ilə keçirilələk konfrans ölkəmizin beynəlxalq təşkilatlarla tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunun göstəricisidir.

ABŞ-ın Narkotiklərlə Mübarizə Administrasiyasının Ankara ofisinin direktoru Klement Sze iclasda çıxış edərək bu beynəlxalq konfransın əhəmiyyətindən danışıb, təşkilati məsələlərə bağlı fikirlərini bölüşüb. İclasda Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın keçirilməsi ilə bağlı öhdəliklərin, eyni zamanda, tədbirə ev sahibliyi edən Azərbaycan Hökumətinin üzərinə düşən vəzifələrin, lazımi və zəruri təşkilati məsələlərlə əlaqədar hazırlıq işlərinin qarşılıqlı əməkdaşlıq çərçivəsində yerinə yetirilməsi məqsədilə təklif və suallarla bağlı fikir mübadiləsi aparılıb.

# "Azərbaycan-Türkmənistan sənədləri gələcək əməkdaşlığı daha da dərinləşdirəcək"



"Bu gün Azərbaycan-Türkmənistan münasibətləri özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkələrimiz arasında qədim tarixə, zəngin mədəniyyətə əsaslanan dostluq, qardaşlıq münasibətləri mövcuddur. Möhtərəm Prezidentimiz İlham Əliyevin Türkmənistana son rəsmi səfəri, keçirdiyi görüşlər, imzalanan sənədlər bir daha bunu nümayiş etdirir. "Bizi tarix, mədəniyyət, ümumi köklər, ənənələr, dünyagörüşü birləşdirir. Bu, həmin güclü bünövrədir ki, bizə öz münasibətlərimizi bərabər hüquqlar, mehriban qonşuluq, dostluq və qardaşlıq əsasında qurmağa imkan verir", deyən Azərbaycan Prezidenti mətbuata birgə bəyanatda vurğulayıb ki, ölkələrimiz gələcəkdə də bir-birinə beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək göstərməyə razılaşıb." Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan Prezidentinin rəsmi səfəri çərçivəsində imzalanan sənədlər kifayət qədər mühüm əhəmiyyət daşıyır: "Səfər çərçivəsində müxtəlif sahələri əhatə edən 20-dən çox sənəd imzalanıb. "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında Saziş"i, "Azərbaycan Respublikası və Türkmənistan arasında keçirilən mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinin təşkili barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında Saziş"i, "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında Saziş"i, "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2021-ci illər üzrə ticarət-iqtisadi əməkdaşlıq Proqramı" və imzalanan digər sənədlər ölkələrimiz arasındakı gələcək əməkdaşlığı daha da dərinləşdirəcək, yeni imkanlar yaradacaq".

"İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, ölkə başçısının son rəsmi səfəri ölkələr arasındakı qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə şərait yaradacaq, regionda sülh, sabitlik və təhlükəsizliyə mühüm töhfələr verəcək.

# "Türkmənistana səfər Azərbaycanın çox vektorlu xarici siyasətinin göstəricisidir"



"Azərbaycanla Türkmənistan arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri Azərbaycanın çox vektorlu xarici siyasətinin göstəricisidir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Tahir Rzayev deyib. Səfər çərçivəsində dövlət başçıları arasında hər iki ölkənin gələcəyi üçün mühüm məsələlərin müzakirə edildiyini deyən deputat bildirib ki, səfər çərçivəsində dövlət başçılarının birgə bəyanatı, həmçinin müxtəlif sahələrdə əməkdaşlığa dair 20 müqavilə imzalanıb. T.Rzayev vurğulayıb ki, Türkmənistan Azərbaycanın ərazi bütövlüyü, suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəkləyir: " Dövlət başçıları dost ölkə olan Azərbaycan Respublikası və Türkmənistanın bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını qətiyyətlə dəstəklədiklərini bir daha təsdiqlədilər. Prezidentlər suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət və riayət əsasında beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarına uyğun olaraq münaqişələrin sülh yolu ilə həllinin zəruriliyini qeyd etdilər".

# Prezidentin Türkmənistana rəsmi səfəri çərçivəsində nəqliyyat-tranzit sahəsinə aid 9 sənəd imzalanıb



***Noyabrın 23-də Bakı Biznes Mərkəzində keçirilmiş mətbuat konfransında iqtisadiyyat naziri, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının sədri Şahin Mustafayev ölkənin nəqliyyat-tranzit potensialı, Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizləri, bu sahədə həyata keçirilən tədbirlər və görüləcək işlər barədə məlumat verib.***

AZƏRTAC xəbər verir ki, nazir Şahin Mustafayev nəqliyyat sahəsinin, tranzit daşımalarının qeyri-neft sektorunun aparıcı sahələrindən olduğunu deyib. Bildirib ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə digər sahələrdə olduğu kimi, nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün mühüm işlər görülür, layihələr həyata keçirilir. Azərbaycan ərazisindən bir sıra beynəlxalq nəqliyyat dəhlizləri keçir - Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb. Azərbaycandakı siyasi sabitlik və təhlükəsizlik, ölkəmizin beynəlxalq aləmdə formalaşmış etibarlı tərəfdaş imici, yerləşdiyi coğrafi mövqe, digər dəhlizlərlə müqayisədə məsafənin qısa olması və daşıma müddətinin az olması bu dəhlizlərinin əsas üstünlükləridir. Bu dəhlizlərin inkişafı istiqamətində 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu, 2018-ci ilin mayında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilib, Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması həyata keçirilir, Yalamadan-Astarayadək dəmir yolu yenidən qurulur, Astara çay üzərində körpü tikilib, digər terminal kompleksləri yaradılır. Xəzər dənizində 270 gəmidən ibarət ən böyük donanma Azərbaycana məxsusdur, ölkə ərazisində 6 beynəlxalq hava limanı, müasir gəmiqayırma zavodu fəaliyyət göstərir, müasir avtomobil yolları tikilir. 2019-cu ildə gəmiqayırma zavodunda istehsal olunmuş 4 gəmi istismara veriləcək, daha 4 gəminin tikintisi üçün sifariş veriləcək. 2020-ci ildə Şimal sərhəddindən Cənub sərhəddinədək, 2021-ci ildə isə Bakıdan Gürcüstan sərhədinədək müasir avtomobil yolları istifadəyə veriləcək. Bütün bunlar Azərbaycanın nəqliyyat infrastrukturunun gücləndirilməsində mühüm rol oynayır və tranzit daşımalarında iştirak imkanını genişləndirir.

Nazir Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan Ermənistanı regiondakı bütün nəqliyyat layihələrindən təcrid edib.

Tədbirdə Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası barədə də məlumat verilib. Bildirilib ki, Azərbaycan nəqliyyat dəhlizlərinin təşviqi istiqamətində də işlər aparır. İndiyədək Türkmənistan, Gürcüstan, İran, Türkiyə və Çində Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizi ilə bağlı tədbirlər keçirilib. 2019-cu ildə isə belə bir tədbir Hindistanda təşkil olunacaq.

Nazir qeyd edib ki, Azərbaycan və Türkmənistan arasında nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsinin müzakirə edilməsi məqsədilə Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov bu il Azərbaycana səfər edib. Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevin bu ilin oktyabrında Azərbaycana səfəri çərçivəsində nəqliyyat sahəsində fəaliyyət göstərən müvafiq qurumların iştirakı ilə nəqliyyat-tranzit sahəsində əlaqələrin inkişafı məsələsi müzakirə edilib.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri zamanı imzalanmış 21 sənəddən əksər hissəsi məhz nəqliyyat-tranzit sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı olub. Belə ki, səfər çərçivəsində nəqliyyat-tranzit sahəsinə aid 9 sənəd - "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında nəqliyyat, tranzit və logistika məsələləri üzrə Azərbaycan-Türkmənistan Birgə Komissiyasının yaradılması haqqında", "Azərbaycan Dəmir Yolları" QSC və Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi arasında nəqliyyat və tranzit məsələlərinə dair", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında dəniz ticarət gəmiçiliyinin inkişafına dair", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında avtomatlaşdırılmış informasiya mübadiləsi haqqında", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Türkmənistanın Dəniz və Çay Nəqliyyatı üzrə Dövlət Xidməti arasında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Türkmənbaşı Beynəlxalq Dəniz Limanı arasında yükaşırma həcmlərinin artırılması haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iki ölkənin limanlarından keçən daşımaların inkişafı haqqında", "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkmənistanın Avtomobil Nəqliyyatı Nazirliyi arasında beynəlxalq avtomobil daşımalarının inkişafı haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikası və Türkmənistan iki dövlətin (əlavə) ərazilərindən keçməklə həyata keçirilən beynəlxalq daşımaların iştirakçıları üçün viza rejiminin sadələşdirilməsi haqqında" sazişlər və "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019-2022-ci illər üçün nəqliyyat sahəsində əməkdaşlıq Proqramı" imzalanıb. Nəqliyyat-tranzit sahəsi üzrə imzalanmış sənədlər Türkmənistan və Azərbaycan üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin hüququ rejimini tənzimləyir. Qeyd edək ki, 2018-ci ilin 9 ayında Türkmənistandan keçməklə Avropaya və əks istiqamətdə daşınan yüklərin həcmi 190 min ton olub. Gələcəkdə bu yüklərin həcminin 10 dəfə artması üçün potensial var. Ümumiyyətlə, Prezident İlham Əliyevin Türkmənistana səfəri zamanı hər iki ölkənin dövlət başçıları nəqliyyat-tranzit sahəsinin əməkdaşlığın prioritet istiqaməti olduğunu vurğulayıblar.

Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq baxımından Çinin "Bir kəmər - Bir yol" təşəbbüsü ölkəmiz üçün əhəmiyyətlidir. Azərbaycan bu strategiyanı dəstəkləyən ilk ölkələrdəndir. Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında əhəmiyyətli rol oynayır və Azərbaycandan keçən Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu Çinin "Bir kəmər - Bir yol" təşəbbüsü ilə uzlaşır və Çin tərəfi konteyner daşımaları baxımından bu dəhlizə maraq göstərir. Nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi üçün Çin nümayəndə heyətinin Azərbaycana səfəri nəzərdə tutulur.Aparılmış uğurlu siyasət nəticəsində Azərbaycandan keçən tranzit yüklərin həcminin artmaqda olduğunu deyən nazir diqqətə çatdırıb ki, tranzit yüklərin həcmi ümumilikdə 10,4 milyon ton, o cümlədən 8,4 milyon ton neft və neft məhsulları, 2 milyon ton qeyri-neft məhsulları təşkil edir. Qeyri-neft məhsullarının tranzit daşımaları 2017-ci ildə 16 faiz, 2018-ci ilin 9 ayında 23 faiz, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə isə 100 dəfə artıb. Bununla belə tranzit daşımaların artırılması üçün böyük imkan var və ölkəmizdən keçən nəqliyyat dəhlizlərinin potensialının genişləndirilməsi üçün işlər aparılır.

Sonda jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

## Cari ildə 100 min fermerə 102 milyon manat subsidiya verilib

Cari ildə Azərbaycanda 100 min fermerə 102 milyon manat subsidiya verilib. AZƏRTAC xəbər verir ki, bu barədə noyabrın 23-də Aqrar Tədqiqatlar Mərkəzində kənd təsərrüfatının gübrə ilə təminatı məsələlərinə həsr olunmuş mətbuat konfransında kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev deyib. Nazir müavini bildirib ki, əsas məqsədlərdən biri də fermerlərin gübrəyə olan tələbatını təmin etməkdir. Qeyd olunub ki, fermerlərin gübrə ilə təminatında özəl şirkətlərə böyük önəm verilir.

## Naxçıvanda dəmir yolu nəqliyyatından 15 mindən çox sərnişin istifadə edib



Muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafı diqqətdə saxlanılır. Cari ilin oktyabr ayında dəmir yolu nəqliyyatı vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 26 min 940 ton müxtəlif təyinatlı yük, Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 15 min 636 sərnişin daşınıb.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ötən dövrdə vaqonlarda və lokomotivlərdə cari təmir işləri görülüb, Culfa Lokomotiv Deposunda lokomotivlər 5 dəfə texniki baxışdan keçirilib, baş və stansiya yollarında təmir işləri aparılıb. Payız-qış mövsümündə idarə və strukturlarda fasiləsiz və sabit iş rejiminin təmin olunması məqsədilə qərargah yaradılıb, tədbirlər planı hazırlanıb, istismarda olan lokomotiv və sərnişin vaqonları, maşın-mexanizmlər mütəmadi yoxlanılıb, yanğına qarşı texniki müayinə aparılıb, nöqsanlar aradan qaldırılıb.

# Paşinyan Azərbaycan-Belarus əməkdaşlığı barədə: "Ermənistana zərbə vuruldu"

***KTMT-dəki uğursuzluqların ardınca, hələ də bu qurumda "söz sahibi" olduğunu sanan Ermənistanın baş nazir vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyan Azərbaycan-Belarus strateji əməkdaşlığından ciddi təşvişə düşdüyünü gizlətməyib. Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyevin bu ölkəyə səfəri çərçivəsində Belarusun dövlət başçısı Aleksandr Lukaşenko ilə bir çox sahələrdə, o cümlədən, hərbi-strateji sahədə eyni fikirlərini bölüşməsi onun təşvişini artırıb və bəyanat səsləndirməyə məcbur edib.***



Erməni mətbuatı xəbər verir ki, Belarusda imzalanmış ikitərəfli memorandum əsasında silah təchizatı məsələsinin də yer almasından narahat olan Nikol Paşinyan bildirib ki, bu anlaşmalar KTMT üzvü olan Ermənistanın maraqlarına zərbədir.

"Mən artıq demişəm, hazırkı məqamda növbəti izah olunacaq əsas məsələ budur: təşkilatda olan hər bir ölkə üçün aydın olmalıdır ki, onun hərbi-siyasi partnyoru qarşısında hansı vəzifələr qoyulub" deyən ermənilərin siyasi lideri, hətta iddia edib ki, Ermənistan KTMT-dəki digər ölkələrdən fərqli olaraq, müttəfiqlik borcundan tam şəkildə çıxır və bunu digər partnyorlar (burada Belarus, Qazaxıstan və Rusiya nəzərdə tutulur-red.) barədə demək olmaz. Qeyd edək ki, KTMT-nin son sammitində Belarus və Qazaxıstan, birmənalı olaraq, Ermənistanın bu quruma rəhbərlik etməsinin əleyhinə çıxıblar. O cümlədən, Rusiya da bu ölkələrin mövqeyini bölüşüb. Nəticədə, Ermənistanın, nəinki 2020-ci ilə qədər KTMT-yə rəhbərliyi, hətta bu təşkilatı tərk etməsi ehtimalları artmağa başlayıb. Azərbaycanın isə, Ermənistandan fərqli olaraq, KTMT-də müşahidəçi statusu almaq şansı yaranıb.

Xatırladaq ki, bir müddət öncə, istər Belarusda fəaliyyət göstərən Azərbaycan səfirinin bu ölkənin prezidenti ilə görüşündə, istərsə də Belarusun səfirinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə ölkələrin başçıları eyni mövqedən çıxış edərək, dostluq və əməkdaşlığın daha da artırılmasında maraqlı olduqlarını bildiriblər.

Ermənistan tərəfi isə buna etirazını bildirərkən, Belarus tərəfinin sərt və kəskin bəyanatı ilə qarşılaşmalı olub.

***Rövşən NURƏDDİNOĞLU***

# Elçin Mirzəbəyli: "Ermənistanda baş verənlər ənənəvi Erməni isterikasıdır"

**"Əslində Ermənistan ənənəsinə uyğun şəkildə davranır və buna əsas verən amillər də var. Bundan öncə də Ermənistan müxtəlif qütblər arasında manipulyasiya edib, gah Rusiya, gah Qərb tərəfə üz tutması ilə bağlı davranışları son nəticədə onun hərbi-siyasi müttəfiqi olan Rusiya tərəfindən birmənalı şəkildə qiymətləndirilməmişdir". Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.**



Onun sözlərinə görə, Ermənistan hesab edir ki, o istənilən manevri edə bilər və nəticədə onun manevrləri qəbul ediləcək və ya müttəfiqləri tərəfindən birmənalı şəkildə, anlayışla qarşılanacaq: "Ermənistanın düşünür ki, onun bütün davranışlarına göz yumacaqlar. Bu Ermənistanın ənənəvi xislətində və onu himayə edənlərin xarici siyasətinin strukturuna, mahiyyətinə uyğun gələn addımlardır. Son dövrlərdə Ermənistanda baş verən prosesləri görürsünüz və artıq Ermənistanın xarici siyasətinin prioritetləri və mahiyyəti ortalıqdadır, bunu görməmək mümkün deyil. Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatında qarşılaşdığı problemlərin kökündə də məhz bu amillər dayanır. Şübhəsiz ki, bu prosesdə Azərbaycanın oynadığı rol da əsas amillərdən biridir. Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsində təmsil olunan yaxın strateji tərəfdaşlarının da bu prosesdə işğalçı dövlətə qarşı sərgilədiyi münasibət də ortalıqdadır".

E.Mirzəbəyli söyləyib ki, Ermənistan artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında mövqelərin itirildiyinin fərqindədir: "Bu günə qədər əsas istinad mənbəyi də məhz bu müqavilə idi. Ermənistan rəhbərliyinin daxili siyasətində də müəyyən rol oynayırdı. Çünki Ermənistan rəhbərliyi əsas faktor kimi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını qabardıb və bu təşkilatı Ermənistanın təhlükəsizliyinin əsas söykənəcəyi kimi qələmə verirdi. Lakin indi Ermənistanın faktiki olaraq söykənəcəyi yoxdur və orada təhlükəsizliklə bağlı faktorlar ciddi narahatlıq doğurur. Bu faktorlar xüsusilə də 2016-cı ilin aprel döyüşlərindən sonra kifayət qədər güclənmişdir və Ermənistan vətəndaşları da əmin olmuşdur ki, işğalçılıq siyasəti davam edənə qədər bu ölkənin mövcudluğuna təhdid hər zaman olacaq".

Ermənistan hələ də işğalçılıq siyasətindən əl çəkmək niyyətində olmadığını dilə gətirən siyasi şərhçi söyləyib ki, bu da Azərbaycanı məcbur edir ki, Ermənistana qarşı yürütdüyü təcrid etmək siyasətinin spektorlarını daha da genişləndirsin və Ermənistanın özünün ən rahat hiss etdiyi məkanda belə təklənsin: "Bu proses də artıq baş tutur. İndiki şəraitdə Ermənistanda baş verən hadisələr seçki qabağı olan bir prosesdən daha çox isterikadır - ənənəvi Erməni isterikası. Bu isterikanın içində hədə var. Bu isə şübhəsiz ki, gücsüzlüyün, zəifliyin və məğlubiyyətin göstəricisidir. Yalnız gücsüzlər yüksək səslə çığırıb, hay-küy salmaq və hə yolunu seçirlər. Güclülər isə bunu praktikada, əməldə həyata keçirirlər. Ermənistanın indiki davranışları həm Belarusa qarşı, həm Qazaxıstana, həm də Ermənistanın ənənəvi müttəfiqi olan Rusiyaya münasibətdə bu davranışları da məhz bu amilə söykənir".

E. Mirzəbəyli əlavə edib ki, Ermənistan qütblər arası manevr etməklə Avropa İttifaqından, ABŞ-dan maliyyə dəstəyi ala biləcəyini, bütün bu addımlarına baxmayaraq təhlükəsizliyini ayrı dövlətlərin, ayrı qütbün hesabına təmin edəcəyini düşünür: "Artıq bunun həyata keçməsi mümkün deyil. Heç kim bu ac ölkəyə əlavə vəsait vermək və bunu qidalandırmaq niyyətində deyil. Bu baxımdan da yaranmış vəziyyət Paşinyanı seçkiqabağı şübhəsiz ki, ciddi şəkildə sıxır. Çünki baş verənlər onun daha öncə verdiyi vədlərin mahiyyətinə uyğun deyil. Eyni zamanda Ermənistan cəmiyyətini müəyyən qədər də olsa ona qarşı yönəldir. Digər tərəfdən də köhnə komandanın üzvləri də bu prosesdə aktiv şəkildə iştirak edirlər və yaranmış vəziyyətdən Paşinyana qarşı istifadə etməyə çalışırlar. Paşinyan çox təcrübəsiz, siyasi proseslərdə baş açmayan bir insan kimi hər addımda ciddi səhvlərə yol verir. Nəticə etibarı ilə isterika, hay küy, qəzəb özünün ən son mərhələsinə qoyub".

***Nailə Məhərrəmova***

## "Ermənistanda eyforiya dövrü başa çatdı"



***"Dünənə qədər Azərbaycanı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə hədələyən Ermənistanda bu gün həmin təşkilata üzvlükdən imtina etmək barədə fikirlər səsləndirilir. Bəs görəsən birdən-birə nə baş verdi ki, Ermənistanın mövqeyində belə radikal dəyişiklik meydana çıxdı. Əvvəla qeyd etmək lazımdır ki, idmanda olduğu kimi diplomatiyada da rəqibin gücündən özünə qarşı istifadəetmə metodları var". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.***

Onun sözlərinə görə, Azərbaycan üzün illərdir ki, həyata keçirdiyi prinsipial və ardıcıl xarici siyasəti sayəsində işğalçı Ermənistana arxa olan yaxud onu bu və ya digər səviyyədə dəstəkləyən ölkələrlə münasibətləri elə səviyyəyə qaldırdı ki, Ermənistanın özünə arxa hesab etdiyi ayrı-ayrı ölkələr və regional təşkilatlar artıq bu gün onu dəstəkləmirlər: "Doğrudur Cənubi Qafqazda son iki əsrdə formalaşan olduqca həssas geosiyasi tarazlığı dəyişmək çox çətin olsa da nəhayət son bir neçə ildə Azərbaycan buna xeyli dərəcədə müvəffəq oldu. 2016-cı il Aprel döyüşləri əslində Cənubi Qafqazda baş verə biləcək yeni geosiyasi reallığın başlanğıcı idi. Artıq bu dəfə son iki yüz ildə ilk belə hal idi ki, Azərbaycan hərbi-siyasi reallığı dəyişdimək üçün diqtə edən tərəfə çevrilirdi. Elə bundan sonra da Ermənistanda eyforiya dövrü başa çatdı və yeni siyasi reallıqlar yaranmağa başladı. Hazırda reallıq ondan ibarətdir ki, işğalçı ölkə siyasi müvazinətini itirib və söykənmək üçün sabit dayaq nöqtəsi tapa bilmir. Ona görə də tez-tez səhvlərə yol verir. Dolayısı ilə Azəbaycan tərəfindən hər gün bir az daha çox küncə sıxışdırılır. Bir müddət öncəyə qədər sadəcə Azərbaycan tərəfindən küçə siyasətçisi kimi qiymətləndirilən Paşinyan və onun küçə demokratiyası artıq Ermənistanın KTMT-də müttəfiq olduğu ölkələr tərəfindən də belə qiymətləndirilir.

Əlbəttə bu regional təşkilatın adı və nüfuzu ilk növbədə Rusiya Federasiyası ilə bağlıdır və elə Ermənistanın bir dövlət kimi meydana gəlməsi də bu ölkənin tarixin müxtəlif dövrlərində qəbul etdiyi siyasi qərarlar nəticəsində meydana çıxan reallıqdır. Ancaq hazırda siyasi proseslər elə istiqamətdə inkişaf edir ki, iki ölkə arasında olan münasibətlər tarixdə heç vaxt olmadığı qədər korlanıb. Bu olduqca əhəmiyyətli məsələdir. Ona görə ki, regionumuzda siyasi gerçəklikləri dizayn edən güc mərkəzlərinin tarixi şəraiti və Azərbaycanın yerini və rolunu qiymətləndirmələri üçün soyuqqanlı, qeyri-emosional və obyektiv qiymətləndirmələri üçün şərtlər yaranıb. Bu tarixi fürsət həm də Rusiya-Azərbaycan münasibətlərində tamamilə yeni bir səhifə açmaq imkanları yaradıb. Onsuz da Rusiya ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsində qiymətləndirilir amma hər iki ölkənin təhlükəsizliyinin təmin olunması baxımından hələ də realizə olunmamış olduqca böyük potensial geosiyasi resurslar var. Bunun baş tutması üçünsə ilk növbədə regionda işğal faktına son qoyulmalıdır. Bu bütün region dövlətlərinin siyasi və iqtisadi təhlükəsizliyi baxımından vacibdir. Hazırda Azərbaycanın həyata keçirdiyi xarici siyasət də buna xidmət edir. Ermənistan isə hər gün bir az daha çox dalana sıxışdırılmaqla geosiyasi proseslərin əhəmiyyətsiz aktoruna çevrilir və heç kəs tərəfindən dəstəklənmir".

## "JOXOVURD": Misəritmə zavodunun işçiləri Ermənistanı tərk edir

Ermənistanın "Joxovurd" qəzetinin yazdığına görə, Alaverdidə fəaliyyət göstərən və oktyabrın 18-də bağlanan misəritmə zavodunun bir neçə işçisi artıq Ermənistanı tərk ediblər. SİA adıçəkilən erməni nəşrinə istinadən bildirir ki, zavodun işçiləri rəhbərliyindən bu gün müəssisənin işləyib-işləməyəcəyi barədə dəqiq məlumat öyrənəcəklər. "Metallurgiya sexinin işçisi Armen Kirakosyan qəzetin müxbiri ilə söhbətində bildirib ki, o və digər işçilər hələ də ümid edirlər", deyə yazan erməni nəşri onların zavodun heç olmasa müvəqqəti işləyəcəyinə ümid etdiklərini qeyd edib. "Buna qədər isə, zavodun bir neçə işçisi artıq Ermənistanı tərk ediblər. Əgər bu məsələ öz həllini tapa bilməsə, onda ölkəni tərk edənlərin də sayı artacaq", adıçəkilən qəzet yazıb.

# Azərbaycan dünyanın cəlbedici turizm ölkəsidir

## *Bu il ölkəmizə 2,4 milyondan çox turist gəlib*



***Qeyri-neft sahəsində prioritet mövqelərdən birini tutan turizm sənayesinin inkişafı üçün Azərbaycan özünəməxsus resurslara və potensiala malikdir. Sözügedən sahə üzrə bu günə qədər həyata keçirilən dövlət proqramları və digər normativ-hüquqi sənədlər ölkəmizin turizm sahəsində əsas inkişaf prioritetləri, perspektivləri və problemlərinin həlli istiqamətində atılan mühüm addımlar olmuşdur. Azərbaycanın turizm sahəsində imkanlarının təbliğ edilməsi, daxili turizmin inkişafı və turizm xidməti infrastrukturunun qurulması sahəsində böyük işlər görülüb və hazırda bu işlər davam etdirilməkdədir. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi və dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyəti, davamlı olaraq, həyata keçirilir.***

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması Azərbaycana səfər edən turistlərin sayının artmasına səbəb olub. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. Onu da vurğulamaq yerinə düşərdi ki, Azərbaycanda turizmin inkişafına təkan verən amillərdən biri də ölkədə keçirilən beynəlxalq tədbirlər, konfranslar, simpozimlar və müxtəlif görüşlərdir. Belə tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması istiqamətində uğurlar sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün biz Azərbaycanda çox böyük turist axınını müşahidə edirik: "Ölkəmizin təbii imkanları, şəhərlərimizin gözəlliyi, Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik, əlbəttə ki, turistləri daha çox cəlb edir. Eyni zamanda, Bakıda və ölkəmizin digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər, əlbəttə, burada öz rolunu oynayır, Avropa Oyunları, "Formula-1" yarışı, onun auditoriyası 500 milyon insandır... Bütün bu tədbirlər, əlbəttə ki, Azərbaycanı turistlər üçün daha da cəlbedici ölkəyə çevirir".

Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada turizm ölkəsi kimi də tanıda bilib. Son illərin turizm statistikası sənayenin bu növünün ölkəmizdəki inkişaf səviyyəsinə və dinamikasına əyani sübutdur. Təsadüfi deyil ki, turizm sahəsindəki inkişaf tempinin əsas göstəriciləri kimi qəbul edilən gəlmə turistlərin sayı, onların Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər, yerləşdirmə vasitələrinin, turizm müəssisələrinin, mehmanxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin və yerləşdirilmiş şəxslərin sayı və bir sıra digər göstəricilərdə artım müşahidə edilmişdir.

Cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2 milyon 420,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Yanvar-oktyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 8,3 faiz artaraq, 99,4 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 4,1 faiz artaraq, 891 min nəfər olub. Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 56,5 faizi dəmir yolu və avtomobil, 42,5 faizi hava, 1 faizi isə su nəqliyyatından istifadə edib.

Bununla bərabər, eyni zamanda, on ay müddətində 4 milyon Azərbaycan vətəndaşı xarici ölkələrə səfər edib. Xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,2 faiz artaraq, 4 milyon 14,6 min nəfər olub. Ölkə vətəndaşları İrana, Gürcüstana, Rusiya Federasiyasına, Türkiyəyə, Ukraynaya, Birləşmiş Ərəb Əmirliklərinə və digər ölkələrə səfər ediblər.

Son illərdə turizm sektorunun sürətlə inkişaf etməsi bu sahədə həyata keçirilən islahatlarla da bağlıdır. Turizm sahələrində aparılan işlər, daha çevik idarəçiliyin təmin olunmasına xidmət edir. Həyata keçirilən islahatlar uğurlu nəticələrini verməkdədir. Azərbaycanda turizm sektorunun son 15 ildəki inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısının səyləri nəticəsində, Azərbaycan dünyanın cəlbedici turizm ölkələrindən birinə çevrilib. Bu gün Azərbaycan dünyada təhlükəsiz və sabit ölkə kimi tanınır. Ölkəmizdə turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" yeni qanun layihəsi, həmçinin, 2016-2025-ci illər üçün turizmin inkişaf strategiyası hazırlanıb. Azərbaycan Turizm Assosiasiyası, Konqreslər Bürosu, Sağlamlıq və Termal Turizm Assosiasiyası, Yaşıl Kənd Turizm Assosiasiyası və digər turizm qurumları ölkəmizdə turizmin inkişafında mühüm rol oynayır. Paytaxt Bakı da daxil olmaqla, ölkəmizin əksər regionlarında turizmin müxtəlif növlərini, o cümlədən, biznes, istirahət və sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün hər cür imkan var.

**ZÜMRÜD**

## "Qlobal Rəqabətlilik Hesabatı": Azərbaycan yolların keyfiyyəti indeksi üzrə postsovet məkanında liderdir



Dünya İqtisadi Forumunun yeni dərc olunan "Qlobal Rəqabətlilik Hesabatı"na əsasən Azərbaycan yolların keyfiyyəti indeksinə əsasən 34-cü yerdə qərarlaşmaqla postsovet məkanında lider ölkə olub. AZƏRTAC xəbər verir ki, bu indeks üzrə ölkəmizin mövqeyi ötən illə müqayisədə iki pillə yüksəlib. Dünyanın 140 ölkəsi arasında yol infrastrukturunun keyfiyyəti indeksi üzrə 34-cü pilləyə yüksəlməklə belə yüksək nəticənin əldə olunması son illər Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan yol infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsi işlərinin nəticəsində mümkün olub. Yol şəbəkəsinin yenidən qurulmasının məntiqi nəticəsidir ki, "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan yolların keyfiyyəti indeksinə görə bir sıra Avropa dövlətlərini, o cümlədən Litva, Estoniya, Sloveniya, Norveç, İrlandiya, Belçika, İtaliya və digər ölkələri geridə qoymaqla əhəmiyyətli irəliləyiş əldə edib. 2018-ci ildə yolların keyfiyyətinə görə postsovet məkanında lider mövqedə olmaqla Azərbaycan Gürcüstanı 46 pillə, Rusiyanı 70 pillə, Qazaxıstanı 72 pillə, Ukraynanı isə 89 pillə qabaqlayıb. "Qlobal Rəqabətlilik Hesabatı"na əsasən dünyada yolların keyfiyyəti indeksinə görə ilk beşlikdə Sinqapur, İsveçrə, Niderland, Honkonq və Portuqaliya qərarlaşıb. Məlumat üçün qeyd edək ki, builki hesabata əsasən yolların keyfiyyəti indeksinə əsasən Türkiyə 33-cü, Azərbaycan 34-cü, Avstraliya isə 35-ci yerləri tuturlar. Beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilən yol infrastrukturu dövlət başçısının daim diqqət mərkəzində olmaqla, Azərbaycanda beynəlxalq standartlara cavab verən yolların tikintisi, habelə istər paytaxt Bakıda, istərsə də bölgələrdə müasir yolların salınması, ümumilikdə, ölkə əhalisinin təhlükəsizliyini və rahatlığını təmin edir, regionların sosial-iqtisadi inkişafına xidmət edir.

# Hərbi qulluqçuların etibarlı sosial müdafiəsi uğurla təmin edilir

## Prezident İlham Əliyev öz uğurlu fəaliyyəti ilə vədlərinə sadiq qaldığını, hər bir vətəndaşın qayğı və probleminə xüsusi həssaslıqla yanaşdığını əyani şəkildə təsdiq edir

***Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına uyğun olaraq ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11.000 manat birdəfəlik ödəmənin verilməsi prosesi davam etdirilir.***

Bu faktor ilk növbədə belə deməyə zəmin yaradır ki, son illərdə dövlət başçımız məqsədyönlü siyasətinə uyğun olaraq hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılmasına, ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə xüsusi önəm verir. Məhz bu baxımdan, demək mümkündür ki, bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir.

Ümumiyyətlə, sözügedən Fərmanın Azərbaycan Prezidenti İlham Əliyevin humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə yüksək diqqət və qayğısının bariz nümunəsi olduğunu qeyd edə bilərik.

### 11.000 manat birdəfəlik ödəmənin verilməsi də bu amilin tərkib hissəsidir

O da əbəs deyil ki, prezident seçkiləri ərəfəsində Cənab İlham Əliyev uzun illərdir gündəlikdə duran məsələnin həll olunacağını vəd edərək, bu vədlərin reallaşdırılması üçün müvafiq fərmanlar imzalayır və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11.000 manat birdəfəlik ödəmənin verilməsi də bu amilin tərkib hissəsidir. Eyni zamanda bu, ölkə rəhbərimiz öz uğurlu fəaliyyəti ilə vədlərinə sadiq qaldığını, hər bir vətəndaşın qayğı və probleminə xüsusi həssaslıqla yanaşdığını, onların tez bir zamanda aradan qaldırılması üçün əməli tədbirlər gördüyünü əyani şəkildə təsdiq edir.

### Bu günə kimi 150-yə yaxın şəhid hərbi qulluqçuların vərəsələrinə müvafiq vəsait verilib

Onu da xatırlada bilərik ki, 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair nor-



mativ hüquqi baza formalaşdırılaraq, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmişdi. Həmçinin, qanuna uyğun olaraq, sığorta ödənişlərinin verilməsinə prosesinə də başlanılmışdı. Həmin Qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri isə açıq qalmışdı. Məhz buna görə də, Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanı bu kateqoriyaya aid hərbi qulluqçuların vərəsələrinə aiddir.

Artıq, bu ilin 14 noyabr tarixindən başlayaraq, birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Şəhid hərbi qulluqçuların vərəsələri nazirliyin rəsmi saytında sorğu verərək ödəmə almaq hüquqlarını öyrəndikdən sonra notariat kontorlarına müvafiq sənədləri təqdim edir, vərəsəlik şəhadətnaməsi əldə edirlər. Sənədlər notariat kontorları tərəfindən elektron qaydada nazirliyə təqdim olunur. Nazirlikdəki müvafiq işçi qrupu həmin sənədlərin təhlilini aparır. Onu da qeyd edək ki, bu günə kimi 150-yə yaxın şəhid hərbi qulluqçuların vərəsələrinə müvafiq vəsait verilib.

### Xalq sui-istifadəçi "hüquq müdafiəçilərinin" və bəzi siyasətbazların iddialarını rədd edir

Təəssüflə qeyd etməliyik ki, bəzi şəxslərin dövlətin humanist siyasətindən haqsız şəkildə bəhrələnmək cəhdləri də mövcuddur. Bu kateqoriyaya aid insanlar əsasən 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra artıq müvafiq ödəmələri ya alıblar, ya da bələləri bu ödəmələri almaq üçün qanuna uyğun əsasları olmayan şəxslərdir. Daha dəqiq desək, Azərbaycan Prezidentinin humanist siyasətini gözdən salmaq, bu kimi humanist, nəcib və qayğıkeş addıma ləkə yaxmaq istəyən bəzi maraqlı siyasi qruplar, ayrı-ayrı fərdlər isə həmin şəxslərin iddialarından sui-istifadə etməyə çalışırlar. Bələləri əsassız ittihamlar irəli sürür, qanundan kənar yollarla həmin vəsaitlərə yiyələnməyə cəhd edənlərə özlərini "haqqın müdafiəçisi" kimi sırımağa çalışırlar. Lakin onların bu cür əməlləri əlbəttə ki, heç bir nəticə verməyib və verməyəcək. Çünki dövlətin bu kimi humanist addımlarından bəhrələnən xalq sui-istifadəçi "hüquq müdafiəçilərinin" və bəzi siyasətbazların iddialarını rədd edir.

**Rövşən NURƏDDİNOĞLU**

# Atatürk Mərkəzində Dünya Alpaqut Federasiyasının Konfransı keçirilib

## Təşkilati məsələlərə baxılıb, vitse-prezidentlər seçilib





Dünən Atatürk Mərkəzində Alpaqut Turan döyüş sənəti üzrə I Dünya çempionatında iştirak etmək üçün ölkəmizə gəlmiş xarici ölkə təmsilçilərinin iştirakı ilə beynəlxalq konfrans keçirilib. Konfransın işinə Dünya Alpaqut Federasiyasının prezidenti, millət vəkili Nizami Cəfərov, Federasiyanın birinci vitse-prezidenti, millət vəkili Qənirə Paşayeva, Federasiyanın İdarə Heyətinin sədri, Alpaqut döyüş sənətinin müəllifi, Kutsan Vasif Namazov, eləcə də, Dünya Çempionatında iştirak edcək Azərbaycan, Türkiyə, Pakistan, Almaniya Əfqanıstan, Rusiya, Hindistan, Gürcüstan, İran, Kamerun, Türkmənistan, Nigeriya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Nepal və Ukrayna təmsilçiləri qatılıblar.

Alpaqut döyüş sənətinin müəllifi, Kutsan Vasif Namazov qonaqları və tədbir iştirakçılarını salamlayaraq, qeyd edib ki, bu döyüş sənətinin dünyada rəğbət qazanması həm də onun tanınması deməkdir: "Azərbaycanda Dünya Çempionatının keçirilməsi, ümumiyyətlə, həm ölkəmizin, həm də bu döyüş sənəti ilə məşğul olan idmançıların uğurudur".

Konfransda çıxış edən Alpaqut Federasiyasının prezidenti, millət vəkili Nizami Cəfərov bildirib ki, bu döyüş növü, eyni zamanda, mübarizliyinin, əzmin və sülhün çağırışçısıdır. Digər idman növləri kimi, Alpaqut döyüş sənəti də inkişaf edir: "Bu gün Azərbaycanda idmana göstərilən diqqət və qayğının nəticəsidir ki, artıq ölkəmiz bir çox mötəbər idman yarışlarına ev sahibliyi edir. Keçiriləcək Dünya çempionatı da bunun bariz göstəricisidir".

Konfransda millət vəkili, federasiyanın vitse-prezidenti Qənirə Paşayeva da çıxış edərək, ayrı-ayrılıqda Dünya Çempionatında iştirak edəcək alpaqutçulara uğurlar arzulayıb: "Hər bir idman növünün özünəməxsus özəlliyi vardır və belə özəlliklərdən biri də Alpaqut döyüş sənətidir. Əbəs deyil ki, bu döyüş növü artıq dünyanın hər yerinə yayılıb və bu, bilavasitə Azərbaycanın uğuru sayılır. Çünki bu idman növünün ölkəmizdə yaranması da belə deməyə zəmin yaradır. Keçiriləcək Dünya çempionatında hər bir idmançıya uğur və qalibiyyət arzu edirəm".

Sonra təşkilati məsələlərə baxıldı. Yeni Azərbaycan Partiyasının Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov S-1 döyüş liqasının prezidenti, eyni zamanda, Dünya Alpaqut Federasiyasının ictimai əlaqələr üzrə vitse-prezidenti, Pirallahı rayon icra hakimiyyəti başçısının müavini İsmayıl Əliyev S-1 döyüş liqasının 1-ci vitse-prezidenti, Dünya və Avropa çempionu, bir sıra beynəlxalq yarışların qalibi Mərdan Vəliyev S-1 döyüş liqasının 2-ci vitse-prezidenti seçildilər.

Təşkilati məsələlərdən sonra yeni seçilənlərə və tədbir iştirakçılarına hədiyyələr təqdim olundu.

Çıxış edən YAP Pirallahı rayon təşkilatının sədri, S-1 döyüş liqasının prezidenti, və Dünya Alpaqut Federasiyasının ictimai əlaqələr üzrə vitse-prezidenti Hikmət Şikarov ona göstərilən yüksək etimada görə federasiyanın rəhbərliyinə və bütün üzvlərinə öz minnətdarlığını bildirib və qeyd edib ki, Azərbaycanda idmanın inkişafı dövlət qayğısı ilə əhatələnib. "Əbəs deyil ki, bu gün ölkəmizdə bir sıra beynəlxalq tədbirlər keçirilməklə yanaşı, dünya və Avropa çempionatları üzrə müxtəlif yarışlar da keçirilir. Bütün bunlar ölkəmizin bütün sahələrdə əldə etdiyi inkişafın bariz nümunəsidir. Bu inkişafı xalqımıza Cənab Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti bəxş edib. Eyni zamanda, gənclərimizin idmanla məşğul olması sağlam gələcəyimizin təminatıdır. Belə bir missiyada, məhz Dünya Alpaqut Federasiyasının da rol alması sevindirici və fərəhləndiricidir". Hikmət Şikarov da Dünya çempionatında iştirak edəcək idmançıların hər birinə uğurlar arzulayıb.

Tədbirin sonunda xatirə şəkilləri çəkilib.

**RÖVŞƏN RƏSULOV**

# Akademik Tofiq Hacıyev və ortaq türk dili ideyası

***Ortaq türk dili ideyası xeyli vaxtdır gündəmdədir. Bu ideyanı dəstəkləyənlərdən biri də mərhum akademik Tofiq Hacıyev olub. AZƏRTAC bununla bağlı filologiya üzrə elmlər doktoru Sərdar Zeynalın qeydlərini təqdim edir. Bəzən insan özünü milyonların içərisində tənha, kimsəsiz hiss edir. Bəzən də insan cəmiyyətdən uzaq bir dağ başında, dərə döşündə qəlbinə yatan, onu anlayan, bir sözlə, insanlığa qiymət verən bir kəslə üz-üzə olanda özünü qaynar bir cəmiyyətin içində hiss edir, qəlbini fəxarət hissi bürüyür. Qarşında duran şəxsin məqsədi, eşqi, amalı Vətən, dil, millət, haqq-ədalət olanda isə ona inam, etibar, güvən daha da çoxalır, bu cür insanları böyüdüb boya-başa çatdırdığı üçün sənə əbədi məkan olan yurdunla, məkanınla fəxr etməyə bilmirsən.***



Yurduna, elminə layiqincə xidmət edən, otuzdan çox elmlər namizədi, ona yaxın elmlər doktoru-alim yetişdirən, "Mirzə Kazım bəyi 215 ildən sonra öz ana dilində" danışdırmağa ilk təşəbbüs göstərən, üç il əvvəl dünyadan köçən akademik Tofiq İsmayıl oğlu Hacıyev beləlValərindən idi, başqa cür desək, belələrinin mogikanı sayıla bilərdi.

Qarşılaşdığı gənclərin ilk gündən elminə, dünyagörüşünə, dilinə, millətinə sevgisinə, bacarığına xüsusi önəm verən bu millət fədaisi öz arzusuna çatmağa can atanlara kömək göstərməyi heç zaman unutmadı, bunu öz amalına, əqidəsinə, əxlaq kodeksinə çevirdi. Onun qayğısı sayəsində öz əlçatmaz arzusuna qovuşanlardan da biri mənəm. Otuzdan çox elmi kitabın, ondan çox tərcümə kitabının, xarici ölkələrdə nəşr olunan 40 əsərin, yüzlərlə məqalənin müəllifi olan akademik Tofiq Hacıyevin elmi yaradıcılığının əsasını türk dilinə, onun problemlərinə həsr olunmuş əsərləri təşkil edir.

Akademikin türkologiya, türk dilləri, ortaq ünsiyyət dili ilə bağlı məqalələrindən birincisi "Azərbaycan gəncləri" qəzetinin 1970-ci il 12 fevral nömrəsində dərc olunan "İstedadlı türkoloq" məqaləsidir. Məqalədən də görünür ki, o hələ gənc yaşlarından türkologiya ilə dərin maraqlanmış, bu sahədə çalışan alimlərin yaradıcılığına xüsusi diqqət yetirirdi. Bunun ardınca akademik türkologiya məsələləri ilə dərindən və mütəmadi məşğul olur, bir-birinin ardınca "Biz Mirzə Kazım bəyi yaxşı tanıyırıqmı?" ("Ədəbiyyat və incəsənət", 27 noyabr 1987), "Dilimizin tarixi: onu yaxşı bilirikmi?"("Azərbaycan gəncləri", 20 aprel 1989), "Bügünkü türk kitabları" ("Ədəbiyyat" qəzeti, 10 may 1991), "Türkoloji qurultay: gündəliyi və problemlərinin taleyi" ("Ədəbiyyat qəzeti", 18 noyabr 1996), "Birinci Türkoloji Qurultayda ədəbi dil məsələsi ("Ədəbiyyat" qəzeti, 16 dekabr 2015), "Türk dilində sözün morfoloji inkişafı (Türk dillərinin leksik-morgoloji inkişafı)" (ADU nəşri, 1981, səh, 15-25) və digər məqalə və kitablarını çap etdirib. Bütün əsərlərində türkdilli

xalqlar üçün ortaq türk dili məsələsini qabardan akademik fikirlərinə "Türklər üçün ortaq ünsiyyət dili" əsərində sanki yekun vurub, öz fikirlərini bu kitabda əks etdirib. Bu əsərin əsas mövzusu dünyada yaşayan türklərin bir-birilərini aydın başa düşmələri, eyni zamanda, onları həm də qırılmaz tellərlə bir-birinə bağlayan ortaq ünsiyyət dili olan türk dili məsələsidir.

Kitabın "Ön söz yerinə" adlanan giriş bölməsi Ümummilli Lider, görkəmli siyasi xadim Heydər Əliyevin bu cümləlValəri ilə başlayır: "Müasir türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları türk dünyasının xoşbəxt sabahından xəbər verir".

Müəllif qeyd edir ki, "Türk ölkələrinin Rusiya tərəfindən işğalına qədər türk xalqları arasında anlaşma problemi olmamışdır". Lakin türkdilli ölkələrin rus imperiyası tərəfindən işğalından sonra bu qardaş, dili bir, dini bir millətlər arasında süni uçurumlar yaranmağa, onlar arasındakı sıx əlaqələr zəifləməyə başlamışdır.

Akademik bu məsələ ilə bağlı Engelsin Marksa yazdığı məktubunda öz əksini tapan fikirləri nümunə göstərir: "Engels fikrinə belə şərh verir ki, məsələn, Almaniyada, İngiltərədə, Fransada hər millət öz etnik atributları ilə yaşayır, ancaq Rusiyada hamı rus kimi yaşamalıdır. Və bu ruslaşdırma siyasəti əksəriyyəti rus imperiyasında yaşayan türklərin anlaşma rahatlığını pozdu".

Görkəmli alimin özü türk xalqlarının başına gətirilən müsibətlər, onların anlaşma rahatlığının nə zamandan pozulduğunu çox gözəl bilirdi. Lakin bu həqiqəti öz dili ilə özü ifadə etmək istəmirdi. Çünki bu fikrin öz yurdunu və dilini sevən bir türkoloq tərəfindən söyləndiyi üçün onun yanlış yozulacağından ehtiyat edirdi. Öna görə də öz fikrini və münasibətini Marksın fikirləri ilə ifadə edir, yüz illərlə yaşadığımız bu müstəmləkə acısı və həsrət hissinin haradan və nə vaxtdan başlandığını dolayısı ilə olsa da, gələcək nəsillərə çatdırırdı.

Akademik bu məsələdə XIX əsrin 80-ci illərində Krım-tatar ideoloqu İsmayıl bəy Qaspıralının türk birliyi üçün "İşdə, fikirdə, dildə bir" ideyasını rəhbər tutaraq, türk xalqları arasında digər əlaqələrin başlanğıcının da bu ideyadan qaynaqlandığını ilk dəfə olaraq irəli sürdü. Alim bir olmağın, birləşməyin, böyük bir xalqın (eyni zamanda, bütün türk xalqlarının) taleyinin gələcəkdə yalnız bu birlikdən asılı olduğunu dəlillərlə sübut edir. Müəllif bununla bağlı yazır: "XX əsrin əvvəllərində Azərbaycanda Əli bəy Hüseynzadə (Turan), Türkiyədə Ziya Göyalp bu ideyanı yaşatdılar və inkişaf etdirdilər. Əlbəttə bir olmaq, bir məsləkə qulluq etmək yolunda bir dildə ünsiyyət saxlamağın, həqiqətən, böyük əhəmiyyəti var. Bu birlik ideyası ortaq türk dili ideyasını yaratdı. Bu məsələ müzakirə oluna-oluna, çözülə-çözülə sovetlərə qədər uzandı. 1926-cı il Bakı Türkoloji qurultayında gündəliyə düşdü, 1937-ci il repressiyasından sonra qəti olaraq dayandı. Bir də Sovet İttifaqı dağılandan sonra, müstəqil türk dövlətlərinin yaranması ilə Türkiyədə Uluslararası türk dili qurultaylarında bu mövzu yenidən qaldırıldı".

Tofiq Hacıyev illərdən bəri öz dilinin, xalqının, yurdunun böyüklüyünü bütün dünyaya bəyan etmək, göstərmək və sübut etmək istəyib. Mahmud Kaşğari, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı və Ziya Göyalp kimi şəxsiyyətlərin arzularının davamçısı, vərəsəsi kimi çıxış edir, bu işi başa çatdırmağı özünün bir vətəndaş, türklük borcu sayırdı. Bu ideyanı həyata keçirməyi özünün şərəfli vəzifəsi hesab edir, müxtəlif türk xalqlarının nümayəndələri ilə türk dili ilə deyil, başqa bir xarici dillə ünsiyyət qurmağı hər bir türk üçün həqarət sayırdı. O, Mahmud Kaşğarinin "Türkün ürəyinə girmək üçün onunla onun dilində danışmaqdan başqa yol yoxdur" fikrini əsas tutaraq yazırdı: "Müxtəlif coğrafiyalardan olan türkün türkcə danışmasında xüsusi bir mənəvi-psixoloji hissiyyat, doğmalıq duyulur".

Görkəmli türkoloq yaşadığımız dövrdə türk xalqlarının inkişafı, dil birliyi üçün hər cür şəraitin yarandığını söyləyir, bu işin həyata keçirilməsində dövlətimizin başçısı İlham Əliyevin də böyük səylər göstərdiyini vurğulayaraq, onun aşağıdakı fikirlərini sitat gətirir: "Türkün dünyası böyük dünyadır. Biz elə etməliyik ki, türk dünyası daha da sıx birləşsin. Bunu etmək üçün bütün imkanlar vardır".

Böyük türkoloq ortaq türk dilinin yaranması, türk dünyasının inkişafı və çiçəklənməsinə göstərilən dövlət qayğısının genişlənməsindən qürurlanır və bundan böyük fəxarət hissi duyaraq yazırdı: "Türk dövlət başçılarının sammitlərində hamının anlayacağı bir türk dili işlənsə, gözəl olar, ürəkaçan bir atmosfer olar".

Akademik ulu öndər Heydər Əliyevin riyazi dəqiqliklə düsturlaşdırdığı "Biz bir millət, iki dövlətik" ifadəsinə böyük qiymət verərək bu cür birliyi təkcə Türkiyə və Azərbaycan arasında deyil, digər altı müstəqil türk dövlətinin - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan və Türkiyə arasında olmasını arzulayırdı. Müəllif adları qeyd olunan türk dövlətləri arasında birliyin, möhkəmliyin, dostluğun əbədi olmasını türklər üçün ümumi ünsiyyət dilinin yaranmasında görürdü. Ömrünü, fəaliyyətini türk dillərinin tarixi köklərinin inkişafının araşdırılmasına həsr edən türkoloq ortaq türk dili tərəfdarlarının digər türkdilli respublikalarda da olduğunu qeyd edir və məsələ ilə bağlı 2000-ci il aprelin 8-də "Dədə Qorqud" kitabının 1300 illik yubileyinə gələn Qırğızıstanın məsul dövlət adamının "Biz bir millət, altı dövlətik" ifadəsini yüksək dəyərləndirirdi.

Tofiq Hacıyev ortaq ünsiyyət dili olan türk dilinin digər türk dillərinin sıradan çıxması əsasında yaranmasının əleyhinə idi. O, hər bir türk xalqının öz dilini inkişaf etdirməklə yanaşı, ortaq türk dili yaradıb, digər xarici dillərin köməyi olmadan həmin ortaq ünsiyyət dilindən - türk dilindən yararlanmasını arzulayırdı. Mahmud Kaşğaridən başlanan, İsmayıl bəy Qaşpıralı və Əli bəy Hüseynzadə yaradıcılığında çiçəklənən bu ideyanın qarşısında duran məqsədin səhv başa düşülməsini istəməyən bu Vətən sevdalı alim 2001-ci ildə mətbuata müsahibəsində belə deyirdi: "Ümumi türk dili formalaşa bilməz. Kimsə ana dilindən əl çəkib təzə dil yaratmaz. Sadəcə, müasir türk dillərindən birini ümumi ünsiyyət dili kimi qəbul etmək olar. Bu ümumi ünsiyyət dili sənin həmişə işlətdiyin ana dilinin yerinə gəlmir. Sən ailədə, işdə dostlarınla həmişə işlətdiyin ana dilində danışacaqsan. Ümumi ünsiyyət dilini başqa türkçələrin nümayəndələri ilə ünsiyyətdə, beynəlxalq tədbirlərdə işlətməlisən, o, sənin dil açdığın dili, beşik dilini sıxışdırmamalıdır, yoxsa bütün türklər tərəfindən sevilməz, ana dilinə şərik sayılar. Ana dili Tanrı gücündə varlıqdır. Tanrı da ki, bildiyimiz kimi, şərik sevməz".

Bu cavabda alimin təkcə öz dilinə, ortaq ünsiyyət dili olacaq türk dilindən əlavə digər türk dillərinə - qazax, qırğız, özbək, türkmən dillərinə də olan sevgisi özünü büruzə verir. O bilir ki, öz kökündən üzülən ağac nə qədər nəhəng olsa da, son anda məhvə məhkumdur. O, türklər üçün ortaq ünsiyyət dili olan "Türk dili"nin daha da inkişaf etmiş, şaxələnmiş müxtəlif türk dilləri əsasında qurulması arzusunda olduğunu qabardır.

Azərbaycanın yurdsevər oğulları həmişə öz doğma dilinin qayğısına qalmış, onun gələcək taleyi ilə bağlı narahatlıqlar yaşamışlar. Dilimizə olan yad təsirlərin, təzyiqlərin nəticəsində onun təsir dairəsinin nə vaxtsa daralması qorxusu onları rahat buraxmırdı. Onlar türk xalqlarının getgedə bir-birindən uzaq düşməsinin son nəticədə uçurumlar yaradacağından qorxaraq, həmişə bu fikri yaradıcılıqlarının əsas mövzusuna çevirmişlər. Bu ayrılmaların son nəticəsindən qorxan böyük Azərbaycan şairi Almas İldırım "Türk elləri bir-birinə yadlanır, Qazax, qırğız, özbək, türkmən adlanır", - deyə haray çəkirdi. O, sanki böyük türkçəmizin bölünə-bölünə öz böyüklüyünü itirəcəyindən ehtiyat edirdi.

Türkiyə türkcəsinin ortaq ünsiyyət dili səviyyəsinə keçməsi uğrunda mübarizə aparan akademik Tofiq Hacıyev isə Almas İdırımın bu narahatlığını onun şairliyindən irəli gələn emosional bir narahatlıq adlandırır və bununla bağlı yazırdı: "Bir ana dili əsasında dil ailəsinin yaranması və onun tərkibindəki dillərin getdikcə ana dildən və eləcə də tədricən törəyən başqa qohum dillərdən fərqlərinin artması ictimai-tarixi təbii hadisədir, elmin qəbul və təsdiq etdiyi faktdır. Dillərin ayrılması və getdikcə uzaqlaşması dilin inkişaf qanunudur. Zərərli, ziyanverici hadisə deyil".

Beynəlxalq tədbirlərdə əcnəbi dillərin hegemon rola malik olduğunu, bu dillərin işlək olduğunu görən böyük alim özünün bəxtinə yazılmış, şirin türk dilinin bu səviyyədə inkişaf etməməsini, bəlkə də, qürurunа sığışdırmırdı. Ədəbiyyatı, incəsənəti, tarixi, ədəbi nümunələri cəhətdən daha zəngin olan bir xalqın, heç olmasa, türkdilli xalqlar arasında özlərinə yaraşan bir dildə ünsiyyət qurmaq arzusunu ürəyində bir dərd kimi yaşadırdı. Yüz illər boyu vətənpərvər övladlar tərəfindən ürəklərdə yaşayan bu dərd, bəlkə də, nə vaxtsa öz dərmanını tapacaq və yad dillərin yardımına ehtiyac duyulmayacaq. Onda təkcə akademik Tofiq Hacıyevin yox, eyni zamanda, ulu Mahmud Kaşğari, Krım tatarı İsmayıl bəy Qaspıralı, Azərbaycanın yurdsevər övladı Əli bəy Hüseynzadə (Turan) və Türkiyə ziyalısı Ziya Göyalpın ruhları şad olacaq.

# "Elektron hökümət" demokratik cəmiyyətin tərkib hissəsidir




***Son 15 il də ölkəmizdə dünya standartlarına cavab verən müasir milli ödəniş infrastrukturunun yaradılması istiqamətində genişmiqyaslı işlər görülüb. Bununla bağlı Prezidentimizin Fərman və Sərəncamları mövcuddur. Məqsəd də Azərbaycanda modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, əhaliyə göstərilən xidmətlərin elektron qaydada həyata keçirməkdir.***

2001-ci ildə banklardaxili hesablanmaların sistemi AZİPS, 2002-ci ildə isə kiçik ödəmələr üzrə hesablanma klirinq sistemi fəaliyyətə başlamışdır. Bununla banklardaxili hesablanmaların bütöv tərzdə elektronlaşdırılmışdır. Azərbaycanda nağdsız hesablaşmalarla bağlı prosesə 2005 -2007 -ci illər də Milli Ödəmə Sistemlərinin İnkişafına dair Dövlət Proqramının təsdiqlənməsilə start verilib. 2005-ci ildən sonra əmək haqları, pensiyalar və sosial müavinətlərin plastik kartlarla verilməsi prosesi sürətləndirilib. 2006-cı ildən satış nöqtələrində posterminallar quraşdırılır. Hazırda Azərbaycanda 5 milyondan çox plastik kart, 2 min 500-ə yaxın bankomat, 37 mindən çox pos-terminal var. Ölkədə 5 prosessinq mərkəzi fəaliyyət göstərir və yeni ödəniş sistemləri tətbiq edilir.

### Keyfiyyətcə yeni mərhələ

Hər bir vətəndaş istənilən vaxtı MilliÖn və eManat vasitəsi ilə ödənişlər həyata keçirə bilər. Ödənişi bankların, internet klubların, qaz idarələrinin nəzdində, kabelli televiziya dilerlərində və digər yerlərdə etmək olar. Hazırda respublikamızın ərazisində 5 minə yaxın ödəniş nöqtəsi və 20-yə yaxın ödəniş növü fəaliyyət göstərir. MilliÖn və eManat xidmətləri vasitəsi ilə mobil operatorların, internet provayderlərin, kabel televiziyasının, sığorta xidmətlərinin, şəhər telefonlarının, mənzil-kommunal təsərrüfatı xidmətlərinin (su, işıq, qaz, o cümlədən, qaz smart kartının balansının doldurulması), bank xidmətlərinin, mərc oyunlarının və digər xidmətlərin ödənişini etmək mümkündür. Ümumilikdə, ödəmə terminalları vasitəsi ilə 50-dan artıq təşkilatın və şirkətlərin ünvanına ödənişlər həyata keçirilə bilər. Ödəmələrin evdə, yaxındakı bankomatda, küçədəki avtomatlardan həyata keçirilməsi insanların rahatlığının təmin olunmasına, vaxt itkisinin aradan qaldırılmasına mühüm təkan verir.

### Rahat həyat və səmərəli fəaliyyət Azərbaycan vətəndaşının haqqıdır

Faktlar təsdiq edir ki, ölkəmizdə "Elektron hökümət" portalına müraciət edənlərin sayı getdikcə artır. Ödəniş etmək çox sadələşib. Artıq banka getmək və ya poçt xidmətində uzun növbələrə durmaq lazım deyil. Müasir ödəniş sistemi köşklər 24 saat ərzində, hətta bayram və istirahət günləri də işləyir. Bu sistemin istifadə rahatlığı və adət edilmiş iş forması ödəniş prosesini asanlaşdırır, heç bir mürəkkəb məsələlər yaratmır. İnsanlar lazımi məbləği ödəyir və ödəniş, ani olaraq onun hesabına yazılır. Digər diqqətçəkən məqam ondan ibarətdir ki, ödəyicinin hesabında olan vəsait yalnız ödəyişi qəbul edən operatorun hesabına köçürülə bilər. Buradan vəsaiti geri çıxarmaq mümükün deyil. Çətinlik və ya hər hansı problem yaranarsa, onu qısa müddətdə aradan qaldırmaq mümkündür. Bunun üçün günün istənilən vaxtında *0010 nömrəsinə zəng etmək kifayətdir. Araşdırmalara əsasən, demək olar ki, növbətçi əməkdaşlar abunəçilərin üzləşdiyi çətinliyi və ya problemi ən qısa vaxtda həll edəcəklər. Əhaliyə təqdim olunan daha bir yenilik isə Azərbaycan Prezidentinin 11 fevral 2014-cü il tarixli Fərmanına əsasən yaradılmış "ASAN Ödəniş" sistemidir. Əhalinin əlçatanlığının təmin edilməsi məqsədi ilə bütün ödəniş portallarının və ödəniş terminallarının, eləcə də, elektron bankçılıq xidmətlərinin "ASAN Ödəniş" sisteminə inteqrasiya imkanları yaradılıb. Birmənalı şəkildə, demək olar ki, "ASAN Ödəniş" sisteminin infrastruktur imkanlarının genişləndirilməsi və digər dövlət ödənişlərinin çeşidinin artırılması istiqamətində tədbirləri bundan sonra da davam etdirəcəkdir. Çünki rahat həyat və səmərəli fəaliyyət Azərbaycan vətəndaşının haqqıdır. Ölkəmizin sosial-iqtisadi inkişafı, hüquqi-demokratik dövlət quruculuğu prosesinə sadiqlik insanların Azərbaycan dövlətinin yaratdığı geniş şəraitdən bəhrələnməyə imkan verir.

***İbrahim Balabəyov***

# YAP Gəncə şəhər təşkilatında gənclərlə görüş keçirilib

***Dünən YAP Gəncə şəhər təşkilatının qərargahında Yeni Azərbaycan Partiyasına üzv olmaq üçün müraciət edən bi qrup gənclə görüş keçirilib. YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev ölkə başçısı, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətindən, onun uğurlu nəticələrindən danışıb: "Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində kifayət qədər fəaldır.***





Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar, sosial istiqamətlər üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə dayanıqlı sabitliyin və ardıcıl inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Hər bir ölkənin xoşbəxt gələcəyə olan ümidləri, ilk növbədə, gənclərə bağlıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual gənclərin yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır."

Ölkə vətəndaşlarının, xüsusilə, gənclərin YAP-a üz tutmalarını düşünülmüş və məqsədyönlü addım kimi qiymətləndirən millət vəkili partiyanın strukturu, fəaliyyəti və yaradıldığı vaxtdan, ötən müddət ərzində, qazandığı uğurlardan ətraflı bəhs edib. Partiyaya üzv olmaq üçün müraciət edən gənclər tək-tək özləri haqqında məlumat verib, YAP-ın fəaliyyətini, Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəklədiklərini qeyd edib. YAP-a üzv olmağın onlar üçün böyük fəxarət olduğunu və bu adı şərəflə daşıyacaqlarını bildiriblər. Millət vəkili Naqif Həmzəyev gəncləri bu inamlı qərarları münasibətilə təbrik edib, YAP-da təmsil olunmağın onların cəmiyyətdə daha da inkişaf etmələri üçün stimul olacağını bildirib.

***Rövşən***

# DSX: Azərbaycana narkotik maddə keçirmək istəyən İran vətəndaşları saxlanılıb



*Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin mühafizəsinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri davam etdirilir.*

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 19-da "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqəsində əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələn İran vətəndaşları - 1991-ci il təvəllüdlü Zahareh Chin Yavər Chaparın və 1992-ci il təvəllüdlü Ghahremani Moglanlov Mehdinin üzərinə sərhəd və gömrük baxışı keçirilib. Hər iki şəxs daxili orqanlarında ümumilikdə 380 qram heroin aşkarlandığına görə saxlanılıblar.

Noyabrın 20-də həyata keçirilmiş əməliyyat-qoşun tədbirləri nəticəsində DSX-nin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Yardımlı rayonu Qaravuldaş kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində sahibsiz tapılmış 1 ədəd bağlamada 990 ədəd "Metadon" psixotrop həb, 655 qram marixuanaya və 505 qram prekursora bənzər maddə aşkar edilərək götürülüb. Hər iki fakt üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.





# Avropa İttifaqı ikili standartlar siyasəti yürütməkdə davam edir

***Avropa İttifaqının Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun 10-12 dekabr tarixində Tbilisidə keçirilməsi nəzərdə tutulan onuncu İllik Məclisinə Azərbaycan hökumətinin nümayəndələrinin dəvət edilməməsi qurumun fəaliyyəti barədə bir çox məqamlara aydınlıq gətirir. Azərbaycan, Ermənistan, Belarus, Ukrayna, Moldova və Gürcüstan olmaqla altı postsovet ölkəsi ilə Avropa İttifaqının inteqrasiya əlaqələrinin inkişafı üçün yaradılmış Şərq Tərəfdaşlığı Aİ-nin xüsusi layihəsi olduğu halda, Tbilisidə keçiriləcək tədbirə Azərbaycan hökuməti nümayəndələrinin dəvət edilməməsi bir paradoksdur.***



Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi formatında planlaşdırılan dəvət rəsmi Bakının iştirakının məhdudlaşdırılması deməkdir. Yaxud bu şəkildə dəvət Azərbaycan diplomatının iclasda müşahidəçi statusunda iştirak etməsi anlamına gəlir. Altı postsovet ölkəsindən biri olan Azərbaycanın nümayəndəsinin müşahidəçi statusunda iclasa qatılması yolverilməzdir və bu, yenə də ikili standartların tətbiqindən xəbər verir. Qurumun Azərbaycana qarşı növbəti dəfə ikili standartlar siyasəti tətbiq etməsinin fonunda heç bir tərəfdaşlıqdan söhbət gedə bilməz.

Avropa İttifaqının istefada olan erməni baş nazirini 11 dekabr müzakirələrində iştirak etməyə dəvət etməsi özü də paradoksdur.

Maraqlı burasıdır ki, Ermənistan hökumətinin başçısı kimi Nikol Paşinyanın fəxri qonaq qismində iştirakı nəzərdə tutulur. Avropa İttifaqı istefada olan erməni baş nazirini 11 dekabr müzakirələrində iştirak etməyə dəvət edib və bu, özü də paradoks sayılır. Çünki hazırda N.Paşinyan istefadadır və ona belə bir dəvət heç də normal təsir bağışlaya bilməz. Baş nazir postundan istefa vermiş keçmiş nümayişçinin, qeyri-rəsmi nümayəndənin iştirakı, məhz müşahidəçi statusunda olmalı olduğu halda, onu fəxri qonaq kimi dəvət edən Avropa İttifaqının mövqeyi bəllidir və buna ikili standartların tətbiqindən başqa ad qoymaq olmaz.

### Küçə nümayişçisinin yenidən seçilməsi planı ola bilsin, elə Avropa İttifaqının öz niyyəti və öz oyunudur

Görəsən, Avropa İttifaqı çoxmu əmindir ki, Nikol Paşinyan yenə də baş nazir seçiləcək? Axı hələ seçkilərə bir aya yaxın vaxt qalır və hadisələrin hansı şəkildə cərəyan edəcəyini heç kəs proqnozlaşdıra bilməz. Ola bilsin, küçə nümayişçisi bu dəfə oyundankənar vəziyyətdə qalsın. Belə olan halda, onun indidən belə bir dəvət alması heç də başa düşülən deyil.

Avropa İttifaqının istefada olan erməni baş nazirinə indidən belə bir dəvəti istənilən halda maraqlıdır və görəsən, qurumun belə bir əminliyi hardandır? Bəlkə Paşinyanın növbəti dəfə seçilməsi elə Avropa İttifaqının maraqlarına uyğundur və qurum bu məsələdə heç də biganə deyil? Yaxud bir neçə ay baş nazir kürsüsünə oturdulan küçə nümayişçisinin yenidən seçilməsi planı ola bilsin elə Avropa İttifaqının öz niyyəti, öz oyunudur? Onsuz da, Ermənistanın yeni hakimiyyəti dediyimiz, Paşinyan komandasının bu vaxta qədər yalnız Qərb siyasətini dəstəkləməsi onların, nəinki qərbyönümlü olduğunu təsdiq edirdi, həm də bu hakimiyyəti onlara Qərbin, Avropanın bağışladığını da təsdiqləyirdi. İndi də Avropa İttifaqının belə əminliklə Paşinyanı bir ay sonra hakimiyyət kürsüsündə görməsi deyilənləri təsdiq edir və zərrə qədər şübhə yeri qoymur.

### Şərq Tərəfdaşlığı adlandırılan platformada işğalçı dövlətin ərazi bütövlüyü, sərhədlərin tanınması məsələsini müzakirə edəcəyi qəbulolunmazdır

Avropa İttifaqının Şərq Tərəfdaşlığı adlandırdığı bu platformadan N.Paşinyan öz ölkəsində demokratik dəyərlərin qələbəsinin elanı üçün istifadə etməyəcəyinə kim zəmanət verə bilər? Ümumiyyətlə, Avropa İttifaqı kimi ikili standartlar siyasəti yürüdən təşkilatın belə bir zəmanət vermək niyyəti ola bilərmi? Təsəvvür etmək belə çox acınacaqlıdır və qəbulolunmazdır ki, Şərq Tərəfdaşlığı adlandırılan bir platformada Azərbaycanın ərazisinə təcavüz edən Ermənistan, yəni separatçı rejimin hökm sürdüyü işğalçı dövlət demokratik dəyərlərdən dəm vurur, insan hüquqları barədə pafosla çıxış edir, ərazi bütövlüyünün, sərhədlərin tanınması məsələsini müzakirə edir. Bir sözlə, Avropa İttifaqının bu işğalçı dövlətə verdiyi şans sayəsində dövlət çevrilişini demokratiyanın qələbəsi kimi sırımağa çalışan Nikol Paşinyan erməni xislətinə sadiq şəkildə dünyaya demokratiya, sərhədlərin toxunulmazlığı dərsi keçməyə çalışır.

İclasın Bəyannamə layihəsində Ukraynanın və Gürcüstanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının tanınması məsələsi durursa və bütün bunlar Rusiyanın "işğalçılıq siyasəti" kimi təqdim edilirsə, niyə Azərbaycanın bütövlüyünə və Qarabağ münaqişəsinin nəticələrinə münasibətini ifadə edən eyni fikir yoxdur? Azərbaycana məxsus Dağlıq Qarabağ torpaqlarının işğalçılıq siyasətinə məruz qadığı inkar edilə bilər, yoxsa torpaqları talan edərək, zəbt edərək soyqırımlara, faciələrə imza atanlara terrorçudan, separatçıdan, işğalçıdan başqa hansısa ad vermək olar?

Belə olan halda yəni, Ukraynanın və Gürcüstanın ərazi bütövlüyünün sərhədlərinin toxunulmazlığının tanınması, Rusiyanın "işğalçılıq siyasəti" kimi təqdim edilməsi məsələsi təqdim edilən iclasda Azərbaycanın ərazi bütövlüyü, Ermənistanın "işğalçılıq siyasəti" təqdim edilmirsə, bu ikili standartların tətbiqi, ədalət prinsiplərinin pozulması, beynəlxalq hüquq normalarına hörmətsizlik, qanun pozuntusundan başqa bir şey deyil. Məclisin əvvəlki illərdəki yekun sənədlərində "Şərq Tərəfdaşlığı" layihəsində iştirak edən bütün dövlətlərin ərazi bütövlüyünə mütləq dəstək ifadə edildiyi halda, bu dəfə belə bir mənafe güdmək yalnız ikili standartlar siyasətinin yürüdülməsi deməkdir.

Avropa hələ də ermənipərəst mövqeyi ilə seçilir və bütün bunların fonunda digər dövlətlərdən demokratik dəyərlərə, beynəlxalq hüquq prinsiplərinə hörmətlə yanaşmaq tələb edir. Əslində, Azərbaycan beynəlxalq hüquq normalarına, qanunlara hörmətlə yanaşan demokratik bir dövlət olaraq Avropanın özünə belə nümunədir. Avropa isə, məhz Avropa İttifaqının timsalında ikili standartlar siyasəti yürütməkdə davam edir.

***İnam HACIYEV***

# UNEC-də ikili diplom və mübadilə proqramları uğurla reallaşdırılır

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) dünyanın nüfuzlu universitetləri ilə bakalavr, magistr və MBA təhsili üzrə ikili diplom və mübadilə proqramları həyata keçirir. UNEC-dən AZƏRTAC-a bildirilib ki, bakalavr pilləsi üzrə Fransanın Montpelyer Universiteti, magistr pilləsi üzrə Litvanın Mikolas Romeris Universiteti, MBA üzrə İsveçrənin UBİS (University of Business and International Studies) Universiteti ilə ikili diplom proqramları reallaşdırılır. Eyni zamanda, UNEC London İqtisadiyyat Məktəbinin akademik dəstəyi ilə London Universitetinin beynəlxalq proqramlarına qoşulub. Proqramı müvəffəqiyyətlə bitirən tələbələr London Universitetinin və UNEC-in bakalavr diplomunu əldə edə bilirlər.

UNEC həm də bu istiqamətdə digər nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlığı genişləndirir. Belə ki, 2019/2020-ci tədris ilindən UNEC-də ABŞ-ın Linkoln Universiteti ilə bakalavr və MBA, Rusiyanın Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə bakalavr, Türkiyənin Uludağ Universiteti ilə magistratura pilləsi üzrə ikili diplom proqramlarının həyata keçirilməsi nəzərdə tutulub. Fransanın İCD Paris Biznes Məktəbi və Montpelyer Universiteti ilə MBA təhsili üzrə ikili diplom barədə razılaşmalar əldə olunub.

Hazırda UNEC-in 47 tələbəsi ikili diplom, "Erasmus+", "Mövlana" proqramları və ikitərəfli əməkdaşlıq müqavilələsi çərçivəsində təhsillərini Avropanın və Türkiyənin nüfuzlu universitetlərində davam etdirir. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Erasmus+" mübadilə proqramı və ikitərəfli əməkdaşlıq çərçivəsində 7 tələbə Almaniyanın Siegen Universitetində, 2 tələbə Fransanın Montpelyer Universitetində, 4 tələbə Litvanın Mikolos Romeris Universitetində təhsil alır. "Mövlana" proqramı ilə UNEC-in 24 tələbəsi Türkiyənin Haccəttəpə, Uludağ, Sakarya, Qazi, Yıldız Teknik, Atatürk, Səlcuk və Mersin universitetlərində mübadilədə iştirak edir. UNEC-in ikili diplom proqramlarına qoşulan tələbələrin sayı da ildən-ilə artır. Hazırda UNEC-in 10 tələbəsi nüfuzlu Montpelyer Universiteti ilə ikili diplom proqramı çərçivəsində Fransada təhsilini davam etdirir. Qeyd edək ki, 2017/2018-ci tədris ilində UNEC-in 5 tələbəsi Fransanın Montpelyer Universiteti ilə ikili diplom proqramının məzunu olub. İkili diplom proqramının ilk iştirakçılarına UNEC-in "Məzun günü"ndə Montpelyer Universitetinin diplomu təqdim edilib.



# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı ölkəni uğura aparan amildir

***Bir ölkənin davamlı uğur qazanması üçün onun sağlam düşüncəyə malik, inkişaf etmiş genefondunun olması vacibdir. Genefondun inkişaf etməsi üçün isə uşaq və gənclərin inkişafına xüsusi diqqət göstərmək lazımdır. Azərbaycanda dövlət-gənclər siyasətinin əsas istiqamətləri, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Ümummilli Lider tərəfindən bu istiqamətdə həyata keçirilən uğurlu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir.***

Azərbaycan müstəqillik əldə etdikdən sonra uşaq hüquqları, onların fiziki və mənəvi inkişafı ilə bağlı mühüm işlər görülüb. Ölkəmiz 1992-ci ildə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına, 2002-ci ildə Konvensiyanın 2 saylı Əlavə Protokoluna qoşulub. 1998-ci ildə BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasının müddəalarını özündə əks etdirən Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" Qanunu qəbul olunub.

Ölkəmizdə milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilib, uşaq hüquqlarının müdafiəsi, onların normal formalaşması, sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilib. Bu işlər nəticəsində Azərbaycanda dövlətin vahid uşaq siyasətinin formalaşdırılması, uşaqların fiziki və mənəvi inkişafı sahəsində milli konsepsiya inkişaf etdirilib.

Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasəti Azərbaycan gəncliyinin hərtərəfli inkişafını təmin edir. Ulu Öndər Heydər Əliyev 1994-cü ildə Gənclər və İdman Nazirliyinin əsasını qoyub. Ümummilli Lider 1995-ci ildə gənclərin forumunun keçirilməsi haqqında təklif irəli sürüb və bundan sonra 1996-cı ildən başlayaraq, forumlar təşkil edilib. 1997-ci ildə fevralın 2-nin Azərbaycanda Gənclər Günü kimi qeyd edilməsi haqqında Sərəncam imzalanıb. Gənclərin inkişafı istiqamətində dövlət proqramları, eləcə də, "Gənclər siyasəti haqqında" qanun qəbul olunub.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə bu sahədə daha da uğurlu nəticələr əldə edilib. 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılıb, 2013-cü ildə isə "Gənclər üçün Prezident Mükafatı" təsis edilib. Dövlət başçımız tərəfindən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq olunub. Strategiyanın əsas vəzifələri gənclərin gündəlik qayğıları, ictimai-siyasi proseslərdə fəal iştirakı, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının səmərəli təşkili, məşğulluğun artırılması, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırılması və s.-dir.

Bu gün Azərbaycan gəncləri yüksək intellekt və bacarıqları ilə ölkəmizi beynəlxalq səviyyədə uğurla təmsil edirlər.

Azərbaycanda Prezident İlham Əliyevin tapşırığı ilə məktəbəqədər dövrdən uşaqların inkişafı istiqamətində önəmli addımlar atılır. Ölkəmizdə dünya standartlarına uyğun uşaq bağçaları inşa olunub və bu sahədə peşəkarların yetişdirilməsi təmin olunur. Uşaqların fiziki inkişafı ilə yanaşı, onların mənəvi inkişafı üçün mütəxəssislər tərəfindən məktəbəqədər müəssisələrə proqramlar hazırlanıb. Orta təhsil müəssisələrində də uşaq və yeniyetmələrin vətənpərvər ruhda, dövlətimizə, xalqımıza məhəbbətlə böyümələri üçün önəmli işlər həyata keçirilir. Orta məktəb şagirdləri arasında keçirilən "Şahin" hərbi-idman oyunları respublikamızda məşhurdur.

Xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan dövlət-uşaq siyasətinin əsasında cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyənin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi dayanır. Bu gün biz əminliklə deyə bilərik ki, uşaqlar və gənclərimizin gələcəyi etibarlı əllərdədir. Onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün Azərbaycan dövləti bütün lazımi imkan və şəraiti yaradıb.

Uşaqların fiziki və mənəvi inkişafı istiqamətində Heydər Əliyev Fondu da çox önəmli tədbirlər həyata keçirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun Xoşməramlı Səfiri, Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə uşaqların inkişafı üçün çoxlu layihələr təşkil olunur. Heydər Əliyev Fondu tərəfindən yeni məktəblər tikilərək istifadəyə verilib. Fond tərəfindən bağçalar, körpələr və uşaq evləri yenidən təmir edilib. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə valideyn himayəsindən məhrum olan, talassemiya və hemofiliya, şəkərli diabet xəstəliyindən əziyyət çəkən uşaqlarla bağlı mühüm addımlar atılır. Həmçinin, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi istifadəyə verilib. Çoxlu sayda tibb ocaqları, uşaq müalicə-profilaktika müəssisələri yenidən qurulub, müasir avadanlıqlarla təchiz olunub.

Uşaq və gənclərimizin hərtərəfli inkişafı, müasir texnologiyaların və texnikanın öyrənilməsi və gündəlik fəaliyyətdə onlardan məharətlə istifadə edilməsi sahəsində əldə edilən uğurlar müsbət nəticələrini ölkəmizin bütün sahələrində - iqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, mədəniyyətdə, idmanda və digər sahələrdə də göstərir.



Ölkə başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda Olimpiya Hərəkatının inkişafı istiqamətində əvəzolunmaz işlərə imza atılır. Gənclərimizin Olimpiya Hərəkatına qoşulması onların fiziki inkişafının təmin edilməsi yönündə atılan ən mühüm addımlardandır.

Ölkəmizin hər bir regionunda və paytaxtımızda Olimpiya İdman Kompleksləri fəaliyyət göstərir. Onlarla yanaşı, Azərbaycanda dünya standartlarına uyğun möhtəşəm idman qurğuları inşa olunub. Bütün idman obyektləri gənclərimizin ixtiyarına verilib.

Dövlətimiz tərəfindən gənclərimizin mənəvi inkişafının təmin edilməsi istiqamətində atılan növbəti addımlardan bir də Azərbaycanın bütün bölgələrində Gənclər Evlərinin inşasıdır. Burada gənclər üçün müxtəlif kurslar və asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaradılıb.

Gənclər Evlərinin əsas məqsədi gənclərin təşəbbüslərinin dəstəklənməsi və inkişaf etdirilməsi üçün şəraitin yaradılması, onların özlərini bir şəxs kimi müəyyən etməsi, həmçinin, müvafiq rayonun ərazisində dövlətin gənclər siyasətinin reallaşdırılmasında Gənclər və İdman İdarəsinin fəaliyyətinə yardım göstərilməsidir.

Ölkəmizdə gənclərin inkişafına təkan verən könüllülük hərakatı da geniş inkişaf edib. Azərbaycan gənclərinin beynəlxalq təcrübə toplaması, dünyanın ən peşəkar mütəxəssisləri ilə birlikdə çalışmaları, bilik və savadlarını zənginləşdirmələri üçün könüllülük proqramalarının böyük önəmi var. Son bir neçə ildə Azərbaycanda 17 mindən çox könüllü gənc beynəlxalq tədbirlərin təşkilində iştirak edib.

Gənclərin inkişafında önəmli rol oynayan ali təhsil müəssisələrimiz dünyanın ən qabaqcıl universitetləri ilə əməkdaşlıq edir, mübadilə proqramları həyata keçirirlər. Universitetlərimizdə ən müasir və faydalı tədris sistemlərindən istifadə olunur. Ali təhsil müəssisələrimizdə gənclərin bilik və bacarıqlarının inkişafı ilə yanaşı, onların sosial həyatda, cəmiyyətdə inkişafına da önəm verilir.

Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Dövlət Proqramına əsasən, bir çox Azərbaycan gəncləri xarici ölkələrdə dövlət hesabına təhsil alırlar. Bu isə, onların inkişafı üçün dövlət tərəfindən atılan çox mühüm addımdır.

Bu gün Azərbaycan gənclərinin ölkəmizin ictimai-siyasi həyatında iştirakı üçün hər cür şərait yaradılıb. Azərbaycanın bütün dövlət qurumlarında gənc kadrlara geniş yer verilir. Gənclər ölkəmizin ictimai-siyasi həyatında önəmli rol oynayırlar.

Azərbaycanda gender bərabərliyinə də xüsusi diqqət göstərilir. Gənc oğlanlarla yanaşı, gənc qızların da sosial həyatda fəal iştirakı təmin olunur, onların inkişafı üçün geniş şərait yaradılır.

Hazırda Azərbaycan gənclərinin, demək olar ki, mütləq əksəriyyəti internetdən rahat şəkildə istifadə edirlər. Bu isə, onların bilik və bacarıqlarının inkişafı üçün önəmli vasitədir. Onlar internet vasitəsilə istənilən kitabı, müxtəlif informasiyaları əldə edir, dünya təcrübəsindən xəbərdar olurlar.

Gənclərimiz bu gün dünyanın ən qabaqcıl ölkələrində təhsil alır, beynəlxalq tədbirlərdə uğurla iştirak edir, ən mötəbər yarışlarda birincilik əldə edirlər.

Bu gün qürurla deyə bilərik ki, Azərbaycanda uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqamətində aparılan işlər sağlam və intellektual nəslin formalaşmasına səbəb olub.

Bu il noyabrın 16-da ölkəmizdə gənclər sahəsində daha bir mötəbər tədbir keçirilib. Bakı Konqres Mərkəzində "Cümhuriyyətin varisləri - Azərbaycanın gələcəyi" devizi altında Azərbaycan Gənclərinin VIII Forumu təşkil edilib.

Azərbaycan Prezidenti İlham Əliyev forum iştirakçılarına təbrik məktubu ünvanlayıb. Sözügedən məktub dövlət başçımızın ölkə gənclərinə, onların inkişafına verdiyi önəmin parlaq nümunəsidir. Cənab Prezident məktubda bir daha vurğulayıb ki, hazırda gənclər siyasəti sosial siyasət kursumuzun və insan kapitalının inkişafı prosesinin əsas istiqamətlərindən biridir.

Gənclər və idman naziri Azad Rəhimov isə bildirib ki, dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait on il ərzində yüz dəfəyədək artıb. 2005-ci və 2011-ci illərdə Azərbaycan gəncləri ilə bağlı ardıcıl olaraq, iki Dövlət Proqramı qəbul edilib. 2011-2017-ci illərin gənclərin yüksək iştirakçılıq mərhələsi və Azərbaycan gənclər siyasəti təcrübəsinin beynəlxalq səviyyədə tanınması dövrü kimi dəyərləndirildiyini deyən nazir qeyd edib ki, bu illər, həmçinin gənclərə dövlət dəstəyinin ən sürətlə artdığı dövr olub. Artıq dövlət proqramlarının icrasında, beynəlxalq əməkdaşlığın inkişafında, Azərbaycan maraqlarının xaricdə müdafiəsində gənclər və gənclər təşkilatları daha yüksək fəallıq göstərməyə başlayıblar.

A.Rəhimov xüsusi vurğulayıb ki, son beş ildə nazirlik tərəfindən 681 tədbir, o cümlədən 107 beynəlxalq tədbir həyata keçirilib. Xarici heyətlər çərçivəsində 7305 əcnəbi Azərbaycana səfər edib, 1277 azərbaycanlı gənc beynəlxalq tədbirlərə qatılıblar. Gənclərimizin təşəbbüsü ilə mənzil-qərargahı Bakıda yerləşən 5 beynəlxalq gənclər təşkilatı yaradılıb.

Azərbaycan gənclərinin beynəlxalq əməkdaşlığı barədə də məlumat verən nazir bu baxımdan 2014-cü ildə ölkəmizdə keçirilən və 165 ölkədən 700 nümayəndənin iştirak etdiyi Gənclər Siyasəti üzrə I Qlobal Forumun əhəmiyyətini xüsusi qeyd edib.

Sonda bir daha vurğulamaq lazımdır ki, bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, gənclər sahəsində də aparılan uğurlu siyasət, uşaq və gənclərin inkişafına göstərilən xüsusi diqqət ölkəmizin parlaq gələcəyinin əmin əllərdə olmasını göstərir.

**Elgün Aslanov**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün hazırlanıb.*

# "Fransa Azərbaycanın bölgənin lider dövləti olduğunu anlayır"

## "Bako Saakyan kimi ünsürün Fransaya səfəri bütün hallarda qəbuledilməzdir"

**Fransa Cənubi Osetiya, Abxaziya, Krım və Dnestryanı bölgələrdən olan şəxslərə Fransa ərazisinə daxil olmağa icazə verilmədiyi halda, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinə xüsusi rəğbət göstərir. Bunun daha bir əyani sübutu qondarma "DQR" rejiminin rəhbəri Bako Saakyanın Fransaya səfərini göstərmək olar. Söhbət etdiyimiz müsahiblərimiz rəsmi Parisin Bako Saakyanın səfərinin qarşısını almamasını Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçilik missiyasını üzərinə götürmüş Fransanın həmsədr kimi vasitəçilik prinsiplərinə zidd olduğunu bildirdilər.**



### Millət vəkili Elşən Musayev: "Fransa bu cür düşünürsə, vasitəçilik missiyasından imtina etməlidir"

- Bako Saakyan kimi ünsürün qondarma rejim rəhbəri qismində Fransaya səfəri bütün hallarda qəbuledilməzdir, insan hüquqlarına, demokratiyaya, ümumbəşəri dəyərlərə ziddir. Çünki məlum rejimi kimsə tanımır, az qala bütün dünya bəyan edir ki, onlar separat fəaliyyətlə məşğuldur, de-yuri mövcudluqları yoxdur. BMT, ATƏT, Avropa Şurası, digər aparıcı beynəlxalq təşkilatlar, dövlətlər bir ağızdan qətnamə, qərar, sənəd səviyyəsində bəyan edirlər ki, Azərbaycanın halal torpaqlarını tərk edin, işğalçılıq siyasətinə son verin. Fransa bunları görmürmü? Yoxsa öz daxil olduğu qrupun, ATƏT-in həmsədri kimi vasitəçilik missiyasının təyinatı yaddan çıxıb? Xocalı qətliamını törədən, körpələri qətl edən, diri-diri yandıran, üstəlik bununla fəxr edən rejimin təmsilçisi hansı formada rahat-rahat, təmsilçi qiyafəsində dünya beşliyinə daxil olan bir dövlətin ərazisinə keçə, viza ala, səfər düzənləyə bilər? Münaqişənin həllinə Fransa beləmi yardım edir? Vasitəçilik missiyası tərəf tutmaqdırmı? Bu gedişat insan hüquqlarının qorunmasına, beynəlxalq hüququn prinsiplərinə uyğundurmu? Məncə, Fransa bu cür düşünürsə, ya açıqlama verməlidir, ya da vasitəçilik missiyasından imtina etməlidir. Belə tərəfkeşliklə münaqişənin həllinə heç bir töhfə vermək olmaz. Bako Saakyanın səfərini, bu səfərə şərait yaradanları bir millət vəkili olaraq şiddətlə qınayıram və artıq beynəlxalq əlaqələrimizlə bağlı daha korrekt olmağın vacibliyini düşünürəm.

### Politoloq Elşən Manafov: "Bako Saakyan sərhədi keçəndə Fransa gömrüyü bilib ki, bu şəxs terrorçu qurumun rəhbəridir"

- Qondarma "DQR" rejiminin rəhbəri Bako Saakyan sərhədi keçəndə Fransa rəsmiləri və gömrüyü bilib ki, bu şəxs terrorçu qurumun rəhbəridir. Belə bir adamın ATƏT-in Minsk Qrupunun həmsədr dövləti olan Fransa sərhədini keçməsi və Fransada müvafiq dairələrlə danışıqlar aparması, təbii ki, təəssüf doğurmaya bilməz. Fransa bizə yalnız ATƏT-in Minsk Qrupunun həmsədr dövləti kimi maraqlı deyil, Fransa eyni zamanda, Azərbaycanın Avropa məkanında önəm verdiyi, əməkdaşlıq etdiyi dövlətlərdən biridir. Fransa da Azərbaycana çox böyük önəm verir və Azərbaycanın bölgənin lider dövləti olduğunu anlayır, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı rolu aydın şəkildə dərk edir. Amma Avropa məkanında ən güclü maliyyə imkanlarına malik olan erməni diasporası məhz Fransadadır. Digər tərəfdən isə, bir



qayda olaraq, fransız siyasətçiləri ölkədə keçirilən seçkilər zamanı erməni əsilli fransız seçicilərinin səslərini nəzərə almaq məcburiyyətindədirlər. Ermənilərin Fransada səsləri 1 milyondan aşağı deyil. Ümumiyyətlə, biz bilirik ki, üzdəniraq "Dağlıq Qarabağ Respublikası"nın rəsmiləri Fransada, o cümlədən, Birləşmiş Ştatların müəyyən şəhərlərində kampaniyalar keçirirlər və bu kampaniyaların keçirilməsində məqsəd ianələr toplamaq, dilənçilik yolu ilə maliyyə vəsaiti əldə etməyə çalışmaqdır. Azərbaycanın hüququ var ki, bu məsələni Fransanın diqqətinə çatdırsın və Bako Saakiyan kimi adamların bu səpkili dövlətləri tərəfindən qəbul olunması Fransa-Azərbaycan münasibətlərinə kölgə sala bilər ki, bu da nə Fransanın, nə də Azərbaycanın maraqlarında deyil.

**GÜLYANƏ**

# "Paşinyanın davranışı Moskvada çox mənfi qarşılanıb"



"Nikol Paşinyan Ermənistanda siyasi hakimiyyətə gəldikdən sonra Rusiya əleyhinə onun davranışı Rusiya KİV-lərinin də diqqətindən yayınmır. Bu səbəbdən də Rusiya mətbuatında da Ermənistanın yeni rəhbərliyinin davranışını tənqid edən yazılar dərc olunur". Bunu SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.

Deputatın sözlərinə görə, bu günlərdə "Govorit Moskva" radiostansiyasının aparıcısı, tanınmış jurnalist Sergei Dorenkonun da Paşinyan və onun siyasəti ilə bağlı söylədiyi tənqidi fikirlər də həmin Ermənistanın Moskvadakı səfirliyini də hərəkətə keçməyə vadar edib: "Yeni bu gün Rusiya-Ermənistan münasibətləri özünün ən mürəkkəb çağlarından birini yaşayır. Xüsusilə də Ermənistan baş naziri bir yandan Rusiya müttəfiqdir deyir, bir tərəfdən Putin dostumdur deyir, digər tərəfdən isə o addımları atır ki, bu birbaşa Rusiyanın milli mənafeləri əleyhinə yönəlib. Məsələn, baş nazir olaraq o nazir postlarına o şəxsləri təyin edir ki, onlar Soros adamları imicinə malikdir və ABŞ-dan qrantlar almaqla məşğul idilər. Eləcə də anti-Rusiya bəyanatları ilə yadda qalıblar. Bundan savayı Paşinyan Moskva ilə ümumiyyətlə isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) heç bir üzvü ilə hesablaşmadan təşkilatın baş katibi vəzifəsini icra edən öz həmyerlisi, generalı həbs etmişdi. Təbii ki, bu da Moskvada son dərəcə mənfi qarşılanmışdı və münasibətlərin soyuqlaşmasını şərtləndirən amillərdən birinə çevrilib.

Eyni zamanda Paşinyan ABŞ Prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri Con Boltonla görüşərkən onun Rusiya silahlarını deyil, Amerika silahlarını almaqla bağlı təklifinə loyal münasibət bəsləməsi də Moskvada çox mənfi qarşılanmışdı. Hesab edirəm ki, bu reallıqlar fonunda Paşinyan çox gözəl dərk edir ki, onun iddia etdiyi yeni erməni generalın KTMT-nin baş katibi vəzifəsinə təyin olunmamasında da Rusiya amilinin rolu olub. Təbii ki, Belarus və Qazaxıstanla yanaşı Rusiya amilinin də həlledici rolu olub. Bütün bunların fonunda eyni zamanda məlum olub ki, Rusiya-Ermənistan arasında imzalanmış Qaz müqaviləsinin də müddəti başa çatır və rəsmi Moskva əvvəlki ucuz qiymətlərlə Ermənistana qaz satmaq niyyəti yoxdur. Bütün bunlar üst-üstə gəldikdə Ermənistan iqtidarı bu gün belə bir fikir aşılamaq istəyir ki, Rusiya anti-erməni siyasət həyata keçirir, Ermənistan əleyhinə fəaliyyət göstərir və Azərbaycanla Ermənistan əleyhinə dostluq edir. Bu səbəbdən də indi erməni ictimai fikrində Rusiyanın düşmən obrazı formalaşdırılmaqdadır.

Hətta bir çox erməni ekspertləri KTMT-dən çıxmaq, Avrasiya İqtisadi İttifaqından çıxmaq, Rusiya ilə imzalanmış bütün müqavilələrdən imtina etmək və eyni zamanda Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının da ölkədən çıxarılması kimi təkliflərlə, tələblərlə çıxış edirlər. Rusiyanın həlləki bununla bağlı rəsmi mövqeyi yoxdur. Amma hər halda Ermənistanın yeni rəhbərliyinin bu davranışı Moskvada çox mənfi qarşılanıb. İstisna deyildir ki, qazın qiymətinin qaldırılması Ermənistan ilk cəza mexanizminin tətbiqi kimi də dəyərləndirilə biləcək".



**Təhmasib Novruzov**

# Yenə "AMNESTY İNTERNATİONAL..."

***Dünyamızda ölkələrin, dövlətlərin daxili işlərinə burun soxmaq, yeri gəldi-gəlmədi, iqtidarları tənqid atəşinə tutmaq, ölkələrdə baş verən proseslərə öz baxış bucağı ilə müdaxilə etmək bir dəb halına çevrilib. Xüsusilə Qərbin elə qurumları var ki, özlərini hamıdan ağıllı, ədalətli və yüksək siyasi düşüncəli hesab edirlər.***

Mən siyasətçi və ya siyasətşünas olmasam da, Azərbaycanın müstəqilliyində az-çox rolu olan və Müstəqil Azərbaycan dövlətinin necə çətinliklərlə qurulduğunun, indiki sürətli inkişaf yoluna qədəm qoyduğunun canlı izləyicisi kimi dünyada gedən prosesləri analiz etməyi, onun ölkəmizdəki təzahürlərini təhlil etməyi və obyektiv nəticə çıxarmağı bacararlardanam (Təvazökarlıqdan uzaq bu fikirlərimə görə oxucularımdan üzr istəyirəm). Amma elə beynəlxalq (əslində, kimlərinsə maraqlarına xidmət edən) qurumlar var ki, onların fəaliyyətlərini ha izləyirsən, məqsədlərinin nədən ibarət olduğunu anlaya bilmirsən. Lap elə Məşədi İbadın səhifə yarımlıq "Tarixi-Nadir"i oxuyub, deyilənlərdən heç nə başa düşmədiyi kimi, mən də bu qurumların mövqeyindən bir şey anlamıram ki, anlamıram. Məsələn, Qərbin məşhur hüquq-müdafiə təşkilatlarından biri olan "AMNESTY İNTERNATİONAL", yəni bizim dilimizdə "amnisti interneyşn" adlanan qurum kimi. Qələm adamı olaraq, bu yazıya başlamazdan öncə, adıçəkilən bu təşkilatın fəaliyyətini bir az araşdırdım. Otuz ildir Qafqazda təhlükə mənbəyi yaradan, bu regionu qana çalxayan, iyirmi il Ermənistan adlanan bir quberniyanı xunta rejimi ilə idarə edən, on minlərlə günahsız insanların qanının axıdılmasına bais olan, XOCALI SOYQIRIMI kimi vəhşiliyin müəllifləri olan və bu qırğını törətmələrini iftixarla söyləyən Koçaryan-Sarkisyan rejiminə qarşı hər hansı bir dəyərli firkir söylədiklərinə dair bircə fakt belə tapa bilmədim. Bilmirəm, əgər deyibsə və kimsə buna şahid olubsa, buyurub göstərsin. Di gəl ki, Azərbaycanla bağlı xırda bir olayı necə canfəşanlıqla, özü də obyektivlik hissindən tamam uzaq şərh edirlərsə, adamın matı-qutu quruyur. Görəsən, niyə? Bax, elə yazımın başlıca məqsədi də bu "niyə"nin cavabını axtarmaqdır. Mən öz anladığım qədər bu cavaba aydınlıq gətirmək istəyəcəyəm. Əgər kimlərsə mənimlə razılaşmasalar, onda buyurub öz arqumentlərini qoysunlar ortaya.

Mənim anladığım odur ki, dünyanın qloballaşması siyasəti, necə ki, mahiyyəti etibarilə dünyanın qərbləşdirilməsinə xidmət edir, eynilə də bu və buna bənzər qurumların da fəaliyyəti Qərbin istəklərinə birbaşa xidmət göstərir. Qərbdə isə ən güclü mafioz-lobbilərdən olan erməni diasporasının, nəinki siyasiləşmiş QHT-lərə, hətta Avropanın ən öndə gedən dövlətlərinə belə çox asanlıqla təsir göstərmək imkanları mövcuddur. Bəs bu təsiri hansı üsullarla göstərirlər? Heç şübhəsiz, pulla-parayla özlərinə nökər etdikləri siyasi simalar (oxu: simasızlar) vasitəsilə. Deməli, Avropa pulla, pul hesabına əldə edilən güclə idarə olunur. Belədə, güclü dövlətlərə təsir göstərməyə imkanı olan erməni mafiozları üçün bir QHT-yə təsir göstərmək imkanının olub-olmaması heç mübahisə obyekti də deyil. Bu da, o deməkdir ki, "amnisti interneyşn" kimi qurumlara erməni təsiri qaçılmazdır. O zaman belə bir qurumun dediklərində, yaxud yazdıqlarında həqiqət, ədalət və obyektivlik axtarmağa dəyərmi? Bizim dədələrimizin bu yerdə də yaxşı bir deyimi var: it hürər, karvan keçər. Bir it hürər, iki it hürər, karvanbaşı da ona bir daşdan, salbadan atıb keçər. Bizə o qədər it hürür ki, bilmirik bunların hürüşməsinə baxaq, yoxsa yolumuza davam edək. Amma o da həqiqətdir ki, içimizdə bu itlərə "fıs-fıs" eləyənlər var. Məncə, bu fısqırtma işinə can-başla qulluq eləyənlərin milli mənsubiyyətlərinə, həm də milli qeyrətlərinə baxmaq lazımdır. Yoxsa milli qeyrəti olan azərbaycanlı belə itləri öz millətinin və öz dövlətinin üstünə fısqırtmaqdan zövq almaz...

# Azərbaycan milli elitası insan hüquq və azadlıqlarının müdafiəsi uğrunda mübarizədə

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq" adlı məqaləsi adət etdiyimiz "məqalə" məhdudiyyətinə sığışmır. Bu, müasir cəmiyyətin hərəkətverici qüvvəsinə istiqamət vermək mövqeyindən yazılmış monoqrafik tədqiqat əsəridir, fəlsəfi, elmi-nəzəri mahiyyəti ilə yanaşı, siyasi-təbliği əsərdir. Bunun bir əhəmiyyəti də ondan ibarətdir ki, dövlətçiliyimizin ideologiyasının istiqamətini müəyyənləşdirən dövlət adamı tərəfindən yazılmışdır. Yusif Seyidov yazır: "Əsərdə müasir dünyanın, bəşəriyyətin, birinci növbədə isə, Azərbaycan dövlətinin qarşısında dayanan, bütün şüurlu insanların maraq dairəsində olan problemlər fonunda çox mühüm məsələlərdən söhbət açılır.***

Bu fəlsəfi ideya fonunda insan dayanır və qloballaşan dünyanın sükanı insanın əlindədir. Bu insan nə qədər kamil olarsa, XXI əsrin tələbləri səviyyəsində durarsa, cəmiyyət və cəmiyyətlər həqiqi təkamül yolu ilə inkişaf edər, azad və müstəqil həyatın əsası qurular. Bu mənada, elita problemi meydana çıxır. Elita nədir? Elita cəmiyyətin hansı təbəqəsidir? Cəmiyyətin formalaşmasında elitanın rolu nədən ibarətdir? Elitanın özü necə yaranır? Akademik Ramiz Mehdiyev bu və bununla əlaqədar digər sualları elmi-fəlsəfi baxımdan cavablandırır, elita məfhumunu, milli Azərbaycan elitası anlayışını belə formalaşdırır: "Elita o şəxslərdir ki, onlar üçün Azərbaycan təkcə hamıya məlum olan "Odlar yurdu", doğulduğu yer, insana çörək və iş vermiş torpaq, dostların və qohumların olduğu məkan deyildir. Azərbaycan milli elitasının əksəriyyəti üçün bu, uğrunda hər kəsin hər şeyi qurban verməyə hazır olduğu müqəddəs anlayışdır".

Bu, nəzəri fikirdir. Bu, o deməkdir ki, milli elita üçün insanın savad dərəcəsi, ictimai mövqeyi və digər bu kimi cəhətləri nə qədər əhəmiyyətli olsa da, onlar öz-özlüklərində kifayət deyil. İnsan bu bilik və bacarıqlarını xalqın, vətənin mənafeyinə yönəldirsə və bununla da cəmiyyətdə lazımlı şəxs kimi etiraf olunursa, elita keyfiyyəti qazanır. Bu gün respublikamızda elita probleminin söz-söhbətə çevrildiyi vaxtda, elita anlayışına aydınlıq gətirmək lazım idi. Akademik Ramiz Mehdiyev heç kəsə cavab vermir və belə bir məqsəd də daşımır. Ancaq deyir ki, hər hansı bir məfhumun, eləcə də, elitanın ümumi nəzəri anlayışını nəzərə almadan, onun məhəlli məsələləri haqqında fikir yürütmək o qədər faydalı olmur".

Elita tarixən ölkənin mərkəzi şəhərlərində formalaşmışdır. Bir zamanlar Azərbaycan elitası Təbriz şəhərində təmərküzləşmə prosesinə qədəm qoyurdu, bu mümkün olmadı, belə bir mövqe Tiflisdə formalaşmağa başladı, nəhayət, Bakı onun mərkəzi oldu. Bununla bərabər Gəncədə, Naxçıvanda, Şuşada güclü milli elita səviyyəsi özünü göstərirdi. Bütün bunlar tarixin gedişində, zamanın tələbi ilə meydana gəlirdi. Akademik Ramiz Mehdiyevin dediyi kimi, bu proses 1970-ci illərdən Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə dövlət əhəmiyyətli məsələ səviyyəsində həyata keçirilməyə başlandı, yeni, müasir keyfiyyət aldı, əhatə dairəsi, məzmunu genişləndi və indi ölkənin Prezidenti hörmətli İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir.

**Siyasi elita hər hansı bir ölkədə siyasi hakimiyyəti həyata keçirənlərə deyirlər.**

Müasir şərhə görə "elita" "cəmiyyətin ən görkəmli və nüfuzlu nümayəndələri" mənasını verir. Bu anlam elitar nəzəriyyənin əsasını təşkil edir. Bu anlayış hər hansı sosial strukturun zəruri hissəsi kimi idarəetmə funksiyasını həyata keçirən ali və imtiyazlı təbəqəni ifadə edir.

Qərb, MDB və Azərbaycan tədqiqatçıları tarixi-məntiqi yanaşma əsasında, ümumilikdə, elitizmin və xüsusən, siyasi elitanın təkamülünü tədqiq edərək, elita və demokratiyanın qarşılıqlı əlaqədə olduğu, onun təkcə siyasi deyil, elmi (intellektual), iqtisadi, bədii-ədəbi, siyasi, hakim, inzibati, müxalifət elitasına bölündüyü qənaətinə gəlmişlər. Elitanın bu və ya digər tipi ictimai prosesə təsir etməsinə görə ümummilli elita səviyyəsinə yüksələ bilər. Milli-elita ictimai-siyasi proseslərin gedişini dəyişdirməyə qabil olan ictimai şüura güclü təsir edə bilən cəmiyyətin güclü mənəvi qüvvəsidir.

**Siyasi elita aşağıdakı funksiyaları yerinə yetirməlidir:**

**a)** strateji funksiya (siyasi proqramların müəyyənləşdirilməsi, cəmiyyətin, siniflərin, təbəqələrin və s.-nin mənafeyini əks etdirən yeni ideyaların tətbiq edilməsi);

**b)** təşkilatçılıq funksiyası (işlənilmiş planın həyata keçirilməsi, siyasi qərarların həyatda reallaşdırılması);

**c)** inteqrativ funksiyası (cəmiyyətin vəhdətinin və sabitliyinin möhkəmlənməsi, onun siyasi və iqtisadi sisteminin dayanıqlığı, münaqişə situasiyalarına yol verilməməsi. Əgər o baş veribsə, həll edilməsi.

M.Yusifov siyasi elitanın formalaşmasının zəruriliyini göstərərək yazır: "Siyasi-ideoloji elitanı formalaşdırmadan müstəqil dövlətçiliyimiz zəminində yaradılmış milli-mənəvi dəyərlərimizi, azərbaycançılıq ideyalarını, sosial və iqtisadi inkişaf nailiyyətlərimizin ən qabaqcıl keyfiyyətlərini gələcək nəslə çatdırmaq imkanlarına nail ola bilmərik. Siyasi-ideoloji elita müstəqil Azərbaycan Respublikasında yaradılmış siyasi, ideoloji, milli, mənəvi və sosial sahələrdə qazanılmış ənənələrimizin varisliyi kimi formalaşmışdır".

R.Mehdiyev Azərbaycan milli-siyasi elitasının yaranma tarixinin 1990-cı ildə Heydər Əliyevin fəaliyyətə başladığı dövrdən başlandığını göstərir: "Elə bu mürəkkəb keçid dövrü də demokratik dəyərlər, sərbəst iqtisadiyyat, azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə aparmağa qadir olan müasir milli-siyasi elitanın mənəvi və siyasi amalının formalaşmasının başlanğıcı oldu. Elitar təbəqə hər bir xalqın öz ənənələrinə və maraqlarına uyğun şəkildə, onun mənafelərinin qorunması istiqamətində fəaliyyət göstərən qüvvədir. Elitar təbəqə cəmiyyətin alimləridir, mütəfəkkirləridir, yazıçılarıdır, şairləridir, ictimai fikir sahibləridir, qabaqcıl ziyalılarıdır, siyasətçi və ideoloqlarıdır. Cəmiyyətdə bu qüvvələr daim aparıcı olub. Elitar təbəqəsi olmayan cəmiyyətdə sivilizasiya yarana bilməz, inkişaf və irəliləyiş baş verə bilməz. Azərbaycanda tarixən onun güclü elitar qüvvəsi və təbəqəsi olmuşdur".

Elitar təbəqə hər bir xalqın milli-mənəvi dəyərlərinin daşıyıcısı və bu dəyərlərin yaradıcısı və milli maraqların qoruyucusu olan mənəvi qüvvədir. Elitar təbəqəyə siyasətçilər, ideoloqlar, yaradıcı şəxsiyyətlər və ziyalılar daxildir.

"Xalqın milli sərvəti kimi səciyyələndirilən milli elita Heydər Əliyev siyasi-mənəvi məktəbindən bəhrələnərək formalaşmışdır.

Hikmət Babaoğlunun fikrincə, müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran başlıca vəzifə və problemlərdən biri də yeni münasibətlər sisteminə müvafiq surətdə milli elitanın formalaşdırılması və bu istiqamətdə milli münasibətlər zəminində təkamül xarakterli yeni keyfiyyət dəyişikliklərinə nail olmaq idi. Milli elitanın formalaşdırılması üçünsə bir sıra strateji səciyyəli zəruri tədbirlər görmək lazım idi ki, bütün bunların fonunda gərəkli şərait və resurslar təmin edilsin: ilk növbədə, müstəqillik əldə etmiş dövlətə milli münasibətlər sistemini rasional surətdə tənzimləyəcək, ictimai-siyasi ahəngdarlıq və tərəqqini təmin edəcək və ümummilli inkişaf strategiyasını müəyyən və tətbiq edə biləcək güclü siyasi hakimiyyət lazım idi. Hakimiyyətin effektivliyi milli tərəqqiyə mane olan mövcud problemlərin həll edilməsi və milli inkişaf strategiyasının müəyyən və icra olunmasını mümkün edəcəkdi. Amma qeyd etdiyimiz kimi, müstəqilliyin ilk iki ilində ölkəyə səriştəsiz və irrasional şəxslərin rəhbərlik etməsi, nəinki milli inkişaf strategiyasının müəyyən və icra edilməsini mümkün etmədi, eləcə də, həmin subyektlərin disfunksionallığı yeni müstəqillik əldə etmiş ölkə üçün çox ciddi təhdid və risklər yaratmış oldu. Məhz bu cür kəskin situasiyanın fonunda milli elitanın formalaşdırılması mümkün olmadı və institusional aktorların bərqərar oluna bilməməsi ölkə miqyasında kataklizmlərin dərinləşməsini şərtləndirdi.

Yalnız 1993-cü ildən - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra bəhs edilən vəzifələrin yerinə yetirilməsi üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə milli resurslardan səmərəli surətdə istifadə edildi. Nəticə etibarilə, bütün bunlar milli elitanın da formalaşmasını təmin etdi və elita transformasiyasının əsası mövcud dəyərlərə, qanunauyğunluqlara və tələblərə müvafiq surətdə qoyuldu. Bu məsələnin Azərbaycan təcrübəsinə gəldikdə isə, qeyd edə bilərik ki, hüquqi və ictimai-siyasi təsisatlanma vəzifəsinə sistematik surətdə konstitusiyanın qəbul olunmasından sonra (12 noyabr 1995) nail olundu. Ana Qanunun qəbul olunması və ona müvafiq surətdə bütün sahələri əhatə edən qanunvericilik bazasının zənginləşdirilməsi institusional aktorların funksionallığı və fəaliyyət mexanizminə əlverişli zəmin yaratdı. Bu isə siyasi sistemin struktur elementlərini təkmilləşdirməklə yanaşı, milli elitanın transformasiyasını da mümkün etdi. Milli elitanın formalaşdırılması üçün sosiomədəni transformasiyaya start verilməsi, buna müvafiq və paralel surətdə struktur islahatlarının həyata keçirilməsi və institusional bazisin formalaşdırılması vəzifələrinin də həyata keçirilməsi strateji səciyyəli fundamental vəzifələr sırasında idi. Sosiomədəni transformasiyaya nail olmaq cəmiyyətdə yetkin stratifikasiyalaşma vəzifəsinin təmin olunmasını mümkün edəcəkdi ki, bu da nəticə etibarilə təkmil sosial-siyasi sistemin bərqərar olunmasını şərtləndirirdi. 1993-cü ildən başlamaq etibarilə Ulu Öndər Heydər Əliyevin rasional və praqmatik strateji tədbirləri sayəsində ictimai-siyasi sabitlik təmin edildikdən, bölücü meyillər və mərkəzdənqaçma tendensiyaları neytrallaşdırıldıqdan sonra sosiomədəni transformasiya prosesinin əsası qoyuldu və bütün sahələri əhatə edən partikulyar və universal struktur islahatları həyata keçirildi. Beləliklə, ölkəmizdə milli elitanın formalaşması, transformasiyası və yenilənməsi Ümummilli Lider Heydər Əliyevin milli inkişaf strategiyasının fonunda həyata keçirdiyi kompleks strateji tədbirlərin fonunda mümkün oldu. Ulu Öndər Heydər Əliyevin sabitləşdirici mexanizmlərdən məharətlə istifadə edərək "mərkəzdənqaçma" meyillərini neytrallaşdırması və siyasi, hüquqi, sosial, iqtisadi, mədəni və digər sahələri əhatə edən milli inkişaf strategiyasını həyata keçirməsi elita transformasiyasının milli maraqlara və dəyərlərə müvafiq surətdə başlanmasını şərtləndirdi.

*Vahid Ömərov,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 24 noyabr


## "Nar" 4G istifadəçilərinin sayı yarım milyon oldu

Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar" yüksək göstəriciyə nail olub. Belə ki, 2018-ci ilin əvvəli ilə müqayisədə "Nar" 4G internetindən istifadə edənlərin sayı 2 dəfə artıb. Hazırda "Nar"-ın yüksək keyfiyyətli 4G xidmətindən istifadə edən abunəçilərin sayı 500 minə çatıb. Mobil operatorun 4G istifadəçilərinin sayının artmasına baza stansiyalarının sürətlə artımı, 4G SIM və 4G smartfon penertasiyası təsir edib.

Qeyd edək ki, "Nar" 4G interneti paytaxtla yanaşı, ölkənin böyük şəhərlərini də əhatə edir. Bölgələrə xüsusi diqqətilə seçilən mobil operator, 4G xidmətini təkcə Bakı və Abşeron ərazisində deyil, bölgələrdə, şəhər və rayon mərkəzlərində də təqdim edir. "Nar" 4G istifadəçilərinin 72%-i paytaxt Bakının, 28%-i isə regionların payına düşür. "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksək keyfiyyətli mobil internet xidməti nəticəsində internet trafikinin həcmi bu ilin əvvəli ilə müqayisədə 36% artıb. 4G keyfiyyəti ilə yanaşı, "Nar"-ın təklif etdiyi sərfəli qiymətlər abunəçilərin mobil internetdən daha çox istifadəsinə şərait yaradır. Limitsiz internet paketləri, müştərilərə həm internet, həm danışıq dəqiqələrini paket şəklində bir arada almaq imkanı verən tariflər "Nar" 4G istifadəçilərinin sayının artmasına təsir edib.

"Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke 4G istifadəçilərinin sayının yarım milyona çatmasını böyük uğur adlandırıb: "Fəaliyyətə başladığımız vaxtdan bu günə qədər "Nar" olaraq, öz abunəçilərimizə yüksək xidmət göstərməyi və müştəri məmnuniyyətini daim diqqətdə saxlayırıq. Peşəkar komandamızın səyi və abunəçilərimizə göstərdiyimiz yüksək xidmət nəticəsində son 10 ayda 4G istifadəçilərinin sayı Bakı üzrə 2, regionlar üzrə isə 3 dəfə artıb. "Nar" olaraq, uğurlarımız bundan sonra da davam edəcək".

Mobil operatorun şəbəkəsi haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

## AzerTelecom "Baku Tel 2018" sərgisində iştirak edəcək

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 4-7dekabr tarixlərində Bakıda keçiriləcək "Baku Tel 2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi və konfransında iştirak edəcək.

Artıq ənənəvi olaraq hər il keçirilən "Baku Tel 2018" sərgisində şirkətin ayrıca stendlə iştirak məqsədi geniş çeşidli telekommunikasiya xidmətlərinin və həllərinin sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim edilməsidir. Sərgi çərçivəsində həmçinin müxtəlif yerli və xarici şirkətlərin nümayəndələri ilə faydalı fikir və təcrübə mübadiləsinin aparılması, tərəfdaşlarla mövcud əlaqələrin daha da genişləndirilməsi və yeni biznes əlaqələrin qurulması nəzərdə tutulub.

Şirkət təqdim etdiyi məhsul və həllər barədə ətraflı məlumat əldə etmək üçün bütün potensial müştəriləri və tərəfdaşları öz stendini ziyarət etməyə dəvət edir.

Qeyd edək ki, Baku Expo mərkəzində keçirilən sərgidəbu il dünyanın 20 ölkəsini təmsil edən 200-dən artıq şirkətin iştirakı gözlənilir. İştirakçıların arasında İKT şirkətləri, mobil operatorlar, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları, tanınmış brendlərin distributorları və gənc ixtiraçılar vardır. Sərgidə ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, Fransa, Türkiyə, Sloveniya, Xorvatiya kimi ölkələrin milli stendləri nümayiş etdiriləcək.


**ELAN**

**ADPU-nun Biologiya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Həsənzadə Fəridə Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


## "Barselona" rəhbərliyi Neymarı geri qaytarmaq üçün danışıqlara başlayıb




"Barselona" rəhbərliyi Neymarın "Pari Sen-Jermen" (PSJ) klubundan Kataloniya təmsilçisinin heyətinə qayıtması üçün cəhd etməyə qərar verib. "Qazeta.ru" saytında yer alan xəbərdə deyilir ki, klub rəhbərliyi braziliyalının nümayəndələri ilə danışıqlarda Neymarın bu təklifə razılıq verəcəyi təqdirdə futbolçunun transferi ilə bağlı rəsmi təklif irəli sürməyə hazır olduğunu bildirib.

İyirmi altı yaşlı Neymarın 2017-ci ilin yazında Paris klubuna transferi 222 milyon avroya başa gəlmişdi. Parislilərlə bağlanmış müqaviləyə əsasən, futbolçu üçün bu məbləğin ödəniləcəyi halda o, klubu tərk edə bilər.

## Fernando Alonso: Şumaxer bütün zamanların ən böyük pilotudur



"McLaren"in pilotu Fernando Alonso Formula 1-in alman yürüşçüsü Mixael Şumaxer haqqında fikirlərini söyləyib. AZƏRTAC xəbər verir ki, onun sözlərinə görə, Şumaxer bütün zamanların ən böyük pilotudur.

F.Alonso "Sportbild"ə müsahibəsində əlavə edib: "Formula 1-ə gəldiyimdə Şumaxer mənim üçün bir örnək idi. Mənim iki qələbəm - 2005 və 2006-cı illərdəki çempionluğum xüsusi əhəmiyyətə malikdir, çünki onları bu böyük pilot ilə mübarizədə qazanmışam. Özü üçün yaxşı gündə və yaxşı avtomobildə məğlubedilməz olan bu pilotla mübarizə aparmaq ağlasığmaz dərəcədə çətin idi. Hətta pis əhval-ruhiyyədə və pis maşında da o, yaxşı olaraq qalırdı".

2013-cü ilin dekabrında fransız Meribelində dağ xizəkçiliyi ilə məşğul olan Şumaxer ciddi zədə alıb və ağır kəllə-beyin travması diaqnozu ilə uzun müddət müalicə olunub. Pilot o vaxtdan bəri dərin koma vəziyyətindədir, 2014-cü ilin sentyabrından isə Cenevrə gölünün sahilində yerləşən villasında müalicə-bərpa kursu keçir. Yaxınları onu KİV-lərin diqqətindən etibarlı şəkildə qoruyur və bu səbəbdən Şumaxerin səhhəti haqqında məlumatlar çox azdır.

## Sadio Mane daha beş il "Liverpul"da



Futbol üzrə Seneqal millisinin və İngiltərənin "Liverpul" klubunun hücumçusu Sadio Mane İngiltərə komandası ilə yeni müqavilə bağlayıb. İngilis klubunun rəsmi saytında yer alan məlumata görə, 26 yaşlı futbolçu daha beş il "Liverpul" klubunun şərəfini qoruyacaq. Futbolçu həftədə 190 min avro məvacib alacaq.

"Liverpul" ilə müqavilənin müddətini uzatmaqdan çox xoşbəxtəm. Bu, mənim üçün yaddaqalan gündür. Hədəflərimiz məlumdur və ona nail olmaq üçün əlimdən gələni edəcəyəm. Doğru klubda və doğru məşqçi ilə çalışıram. Bu klubu seçməyim karyeramda ən mühüm qərarlardan biridir", - deyə Mane bildirib. Qeyd edək, Sadio Mane "Liverpul" klubuna 2016-cı ildə "Sauthempton" klubundan transfer olunub. "Liverpul"un heyətində 84 oyunda forma geyən futbolçu 40 qol vurub, 37 məhsuldar ötürmə edib.

## Luçesku "Fənərbaxça"nı çalışdıracaq?



Türkiyə millisinin baş məşqçisi Mirça Luçesku "Fənərbaxça"nı çalışdıra bilər.Bu barədə Rumıniyanın "click.ro" saytı məlumat yayıb. İstanbul təmsilçisinin rəhbərliyi rumıniyalı mütəxəssisi komandaya dəvət etmək istəyir. Luçeskunun Türkiyə millisi ilə müqaviləsi mövsümün sonunda başa çatacaq. Fillip Kokunun istefasından sonra "Fənərbaxça"ya baş məşqçi təyin edilən Ervin Kumanla da mövsümün sonuna qədər müqavilə imzalayıb. Xatırladaq ki, Mirça Luçesku daha əvvəl "Qalatasaray" və "Beşiktaş" klublarını da çalışdırıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**